# Xalq qəzeti

Xalqın qəzeti!

№ 35 (30729) 16 fevral 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# "Şahdəniz" – Azərbaycanın "mavi" xəzinəsi

**Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Şahdəniz" yatağının zəngin ehtiyatları ölkəmizin potensial qaz ixracatçısı kimi mövqeyini getdikcə gücləndirir. Avropa məkanında zaman keçdikcə özünə daha çox alıcı tapan Azərbaycan qazı "köhnə qitə"nin enerji xəritəsinin zənginləşdirilməsinə xidmət edən Cənub Qaz Dəhlizi vasitəsilə ixrac olunur. XXI əsrin ən nəhəng enerji ixracı marşrutu sayılan bu qaz dəhlizinin uğurlu fəaliyyəti isə "Şahdəniz" layihəsi səhmdarlarının səmərəli fəaliyyətindən asılıdır.**



"BP-Azərbaycan" şirkətinin 2024-cü ilin yekunları ilə bağlı hesabatına əsasən, il ərzində "Şahdəniz" layihəsinin əməliyyat tədbirlərinə 2 milyard 203 milyon dollar, əsaslı məsrəflərinə isə 766 milyon dollar xərclənib. Həmin vəsaitin böyük əksəriyyəti hazırda fəal işlənmə mərhələsində olan "Şahdəniz-2" layihəsinə sərf edilib.

2022-ci ildə "Şahdəniz Alfa" platformasının elektrik təchizatı ilə bağlı icrasına başlanmış layihə ötən ilin dördüncü rübündə uğurla tamamlanıb. Bu da 8 kilometr aralıda yerləşən "Şahdəniz Bravo" platformasından birbaşa elektrik enerjisi almaq imkanı yaradıb. Elektrik enerjisinin ötürülməsi sualtı cərəyan və fiber-optik kabel vasitəsilə təmin olunur. Bu modernləşdirmə "Şahdəniz Alfa" istismara veriləndən bəri qurğuda istifadə olunan 5 dizel generatoruna ehtiyacı aradan qaldırmaqla platformanın əməliyyat səmərəliliyini artıracaq, enerji təchizatının daha etibarlı, uzunmüddətli və fasiləsiz olmasını təmin edəcək, xərcləri azaldacaq.

*(ardı 7-ci səhifədə)*

# Prezident İlham ƏLİYEV: Türk dünyasının ucu-bucağı yoxdur

## *Azərbaycanın təşəbbüsü ilə yaranmış "Made in Turan" brendi bu coğrafiyanı tam əhatə edəcək*

**Son illər beynəlxalq aləmdə gedən ictimai-siyasi proseslər, sürətli qütbləşmələr, güclü dövlətlərin hegemonluq istəyinin "fontan vurması", zəif və inkişaf etməkdə olan ölkələrə yuxarıdan aşağı baxılması, eynilə əvvəlki dünya müharibələri ərəfəsində olduğu kimi, "parçala, hökm sür!" prinsipinin həyata keçirilməsi, xüsusən yeni müstəmləkəçilik ambisiyalarının artması, demək olar ki, çox ciddi bəşəri fəsadlar vəd edir.**

Ənənəvi müttəfiqlərin ciddi səbəb olmadan bir-birindən üz döndərməsi (ABŞ və Avropa İttifaqının timsalında), cəmi iki-üç il əvvəl "Straeji müttəfiqlik fəaliyyəti haqqında saziş" imzalamış dövlətlərdən birinin digərinin haqqını tapdalamaq cəhdləri (Rusiyanın Azərbaycana qərəzli münasibəti kimi), acgöz liderlərin iqtisadi problemləri milli məsələyə çevirərək silah satışından qazanc əldə etmək istəyi (Ermənistana "himayədarlıq" etmək istəyənlər) və digər bu kimi mənfi tendensiyalar dünyanın daha sarsıdıcı fəsadlarla üz-üzə qalacağından xəbər verir. Ona görə də müdrik siyasətçilər və uzaqgörən dövlət başçıları öz xalqlarının maraqlarını təmin etmək üçün siyasi müstəvidə "bir neçə gedişdən sonra" səmərə verəcək yollar axtarır, addımlar atırlar.

*(ardı 3-cü səhifədə)*



# Səbrin də bir həddi var



Səhifə ⇨ 5

# "Böyük manipulyator"

**Mark ENDEVELD**

*(əvvəli qəzetin ötən saylarında)*

Beləliklə, heç bir xəbərdarlıq etmədən, gənc prezident Emmanuel Makron, bütün enerjisini ona sərf edən adamla birdən-birə bütün əlaqələrinə son qoyur. Ən çox zəif adamların at oynatdığı sosial şəbəkələr dövründə hər şey mümkündür və heç nə ayıb deyil. Ona görə də belə bir nankor dövrdə Makron möcüzələr yaradır. O, özünü sevdirir, onu sevənlərdən bol-bol istifadə edir, sonra da onları lazımsız bir şey kimi kənara atır. Özü də heç bir vicdan əzabı çəkmədən. Təbii ki, qoca Jan-Pier, Makronun ona qarşı bu soyuq münasibətinin, onunla əlaqələrinin birdən-birə kəsməyinin səbəblərini başa düşmür. 2012-ci ildə Emmanuel Makronun Yelisey sarayının Baş katibinin müavini təyin olunmasını məhz Jan-Pier Juyet prezident Hollanddan xahiş etmişdi. İki il sonra 2014-cü ilin avqust ayında Makronun iqtisadiyyat naziri təyin edilməsini də prezidentə Jan-Pier Juyet təklif etmişdi.




*(ardı 6-cı səhifədə)*

# Böyük Qayıdışa qardaşlıq töhfəsi

*Xankəndi tikiş fabriki qarşısına böyük hədəflər qoyub*



**Xankəndidə fəaliyyət göstərən "BUSINESS TEX JV" şirkətinin tikiş fabrikindən reportaj hazırlamaq üçün müraciətimizə müəssisənin icraçı direktoru Günel Əlizadə "xoş gəlirsiniz", – deyə cavab verdi. Elə biz də azad Qarabağımızın yenidən dirçəlməsinə, sürətli inkişafına şahidlik etməyin, əsl sahiblərinin doğma yurdlarına Böyük Qayıdışının iştirakçısı olmağın bəxş etdiyi xoş əhval-ruhiyyə ilə yollandıq Xankəndi şəhərinə.**

Yaraşıqlı binası göz oxşayan fabrikə daxil olar-olmaz şən, səmimi kollektivin qaynar iş prosesinin müşahidəçisinə çevrildik. Ən müasir avadanlıqların arxasında əyləşib tikiş tikənlərin, hazır məhsulları ütüləyənlərin, qablaşdıranların, inzibati və texniki işçilərin hamısı işlərindən də, həyatlarından da razı görünürdülər. Hamının üzündən Qarabağa qayıdışın sevinci, fərəhi yağırdı...

*(ardı 8-ci səhifədə)*

# USAID terroru və LGBT-ni dəstəkləyib



Səhifə ⇨ 4

# "Made in USAID" Ermənistanı

*Yaxud Cənubi Qafqazda vaxtı bitmiş "zay məhsul"*

**Sanki Ermənistan adlı dövlət məhsul imiş və belə demək mümkünsə, xarici bazarlara "Made in USAID" adı altında çıxırmış. Hər halda, artıq fəaliyyətinə son qoyulmuş USAID-in yəni ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Ermənistanı, bir növ, rəzil etdiyini söyləmək üçün ciddi əsaslar var və ötən saylarımızda bu barədə söz açmışıq.**




Əslində, Ermənistanın USAID və Soros məhsulu olduğuna dair əsaslar daha əvvəllər formalaşıb. Özü də müqavimət şəklində. Söhbət Azərbaycanın, son dövrlər isə Gürcüstanın göstərdiyi müqavimətdən gedir. Çünki USAID-in hər iki ölkəni Ermənistana bənzətmək, onları zəlil duruma salmaq istədiyi faktdır. Konkret ölkəmizə gəldikdə, təşkilatın Azərbaycana qarşı böhtan və şantaj yolu seçdiyi də həmçinin. Yazımızda buna diqqət yetirəcəyik. Əlbəttə, digər cəhətləri də vurğulamaqla.

*(ardı 4-cü səhifədə)*

# Münxen konfransı: Ukrayna böhranı qlobal siyasət spektrində



Səhifə ⇨ 11

# Serbiya Respublikasının Prezidenti zati-aliləri cənab Aleksandar Vuçiçə

**Hörmətli cənab Prezident!**

Serbiya Respublikasının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Azərbaycan ilə Serbiya uzun illərdən bəri yaxın dost və etibarlı strateji tərəfdaşdırlar. Yüksəksəviyyəli siyasi dialoqumuz və yeni məzmunla zənginləşən əməkdaşlığımız xalqlarımızın və ölkələrimizin rifahına töhfələr verməklə yanaşı, Qafqaz və Balkan regionları arasında əməkdaşlığın inkişafı baxımından mühüm rol oynayır. Tərəfdaşlığımızın prioritet istiqamətlərindən olan enerji sektorunda uğurlu işbirliyimiz Avropanın enerji təhlükəsizliyinin təminatına öz müsbət təsirini göstərir.

Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığımız və qarşılıqlı dəstəyimiz məmnunluq doğurur. Mövcud imkanlardan istifadə edərək dövlətlərarası münasibətlərimizin daha da inkişafına, çoxşaxəli əməkdaşlığımızın dərinləşməsinə nail ola bilərik.

Əminəm ki, Azərbaycan ilə Serbiya arasında ənənəvi dostluq əlaqələri, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı fəaliyyətimiz xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da genişlənəcək, strateji tərəfdaşlığımız daha da möhkəmlənəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Serbiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 12 fevral 2025-ci il**

# Ədliyyə naziri Şirvanda vətəndaşların müraciətlərini dinləyib



**Ədliyyə naziri Fərid Əhmədov fevralın 14-də Şirvan şəhərində vətəndaşları qəbul edib.**

Qəbulda Şirvan, Hacıqabul, Sabirabad və Salyan rayon sakinlərinin ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

# Qərbi Azərbaycan İcması Naxçıvanda da aktivləşir

**Qərbi Azərbaycan İcmasının Naxçıvan Muxtar Respublikası üzrə Nümayəndəliyinin rəhbəri, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev Naxçıvanda məskunlaşmış Qərbi azərbaycanlıların bir qrup nümayəndəsi ilə görüşüb**



Görüşdə muxtar respublikada Qərbi Azərbaycan əsilli soydaşlarımızla Muxtar Respublika Nümayəndəliyinin işinin gücləndirilməsi, onların xatirələri əsasında memuarların yazılması, folklorunun öyrənilməsi, televiziyada və mətbuatda yazıların və çıxışların hazırlanmasının vacibliyi qeyd edilib. Rektor qeyd edib ki, Qərbi Azərbaycan həqiqətlərini müntəzəm təbliğ etmək məqsədilə Universitet Televiziyasında Qərbi Azərbaycan studiyası və universitetdə Qərbi Azərbaycan Mərkəzi yaradılacaq.




**Fövqəladə Hallar Nazirliyinin Şimal Regional Mərkəzi tərəfindən "Yol nəqliyyat hadisələri zamanı zərərçəkmişlərin xilas edilməsi" mövzusunda gecə təlimi keçirilib.**

Məqsəd xilasetmə işlərinin təşkili və aparılması qaydaları, o cümlədən nəqliyyat qəzaları zamanı deformasiyaya uğramış avtomobildən zərərçəkmişlərin xilas edilməsi üzrə xilasedicilərin bilik və bacarıqlarının artırılması, həmçinin xilasetmə qrup komandirlərinin hadisə zamanı effektiv idarəetmə vərdişlərinin təkmilləşdirilməsi olub.

Təlim zamanı şərti olaraq baş vermiş nəqliyyat qəzası ilə əlaqədar "hadisə yerinə" operativ çatan xilasedicilər xüsusi xilasetmə vasitələrindən istifadə etməklə deformasiyaya uğramış avtomobildən "zərərçəkmişləri xilas edərək" onlara "təxirəsalınmaz ilkin yardım göstəriblər".

***XQ***

# "Gənc Müəllimlərin IV Şəbəkələşmə Forumu"

**Fevralın 15-də "Gənc Müəllimlərin IV Şəbəkələşmə Forumu" keçirilib.**

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının təşkilatçılığı ilə keçirilən forumda 600-dən çox müəllim iştirak edib.

AGMA-nın sədri Pərvinə Qədimova forumun məqsəd və əhəmiyyəti barədə iştirakçılara məlumat verib. Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Səbuhi Rzayev, Milli Məclisin deputatı Ceyhun Məmmədov mövzunun təhsil sistemi üçün əhəmiyyətindən, son dövrlər bu sahədə görülən işlərdən danışıblar.

Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov isə "Rəqəmsal Məktəb" platforması haqqında məlumat verib. Digər çıxışçılar da gənc müəllimlərin "Süni intellektin təhsildə tətbiqi" mövzusunda maarifləndirilməsinin olduqca məqsədəuyğun və vacib olduğunu qeyd ediblər.

Forum işini panel müzakirələrlə davam etdirib.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***



# Ceyhun Bayramovun Münxen görüşləri



**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Münxen Təhlükəsizlik Konfransında iştirakı çərçivəsində ATƏT-in baş katibi Feridun Sinirlioğlu ilə görüşüb.**

Görüşdə Azərbaycan–ATƏT ikitərəfli əməkdaşlıq gündəliyinin əsas istiqamətləri, hazırda ATƏT-in üzləşdiyi çağırışlar, regional və beynəlxalq təhlükəsizlik məsələləri, bölgədəki mövcud vəziyyət, eləcə də Azərbaycan–Ermənistan sülh prosesi ətrafında fikir mübadiləsi aparılıb.



Avropada təhlükəsizliyin ciddi çağırışlarla üzləşdiyi hazırkı dövrdə beynəlxalq hüquq normalarının, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı kimi prinsiplərin qeyd-şərtsiz tətbiqinin təşviq edilməsinin vacibliyi qeyd olunub.

Nazir postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar barədə qarşı tərəfi məlumatlandırıb. İlk növbədə keçmiş işğal dövrünün qalıqları olan strukturların ləğvinin ATƏT-in fəaliyyətinin effektivliyi, habelə regional reallıqlara uyğun şəkildə işin təşkili baxımından vacibliyi vurğulanıb.

Azərbaycan–Ermənistan normallaşma prosesinin gedişatından bəhs edən nazir C.Bayramov, Ermənistan Konstitusiyasında və digər qanunvericilik aktlarında ölkəmizə qarşı ərazi iddialarının davam etdirilməsinin prosesə maneə olduğunu diqqətə çatdırıb.

***

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Qvineya Respublikasının xarici işlər, beynəlxalq əməkdaşlıq, Afrika inteqrasiyası və xaricdəki qvineyalılar naziri Morissanda Kouyate ilə də görüşüb.**

Görüşdə iki ölkə arasında iqtisadiyyat, ticarət, təhsil, humanitar və s. sahələr üzrə əməkdaşlıq imkanları müzakirə olunub.

Nazir Ceyhun Bayramov iki ölkə arasında qarşılıqlı səfər və təmasların ikitərəfli, habelə çoxtərəfli əməkdaşlıq perspektivlərinin müzakirəsinə töhfə verdiyini bildirib. Xüsusilə, təhsil sahəsində əməkdaşlığın, təqaüd və mübadilə proqramlarının gənclər, o cümlədən xalqlarımız arasında təmasların inkişafında mühüm rolu qeyd olunub. Regional və beynəlxalq təşkilatlar, xüsusilə BMT, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

***

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Litva Respublikasının xarici işlər naziri Kestutis Budris ilə də görüşüb.**

Görüş zamanı Azərbaycan və Litva arasında mövcud əməkdaşlıq gündəliyinin aktual məsələləri, regional və beynəlxalq təhlükəsizlik mövzuları ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov, postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar barədə qarşı tərəfi məlumatlandırıb.

***

**Xarici işlər naziri Ceyhun Bayramov Münxen Təhlükəsizlik Konfransında iştirakı çərçivəsində Bavariyanın Avropa və beynəlxalq məsələlər üzrə dövlət naziri Erik Beysvenqer ilə görüşüb.**

Görüşdə regional əməkdaşlığın perspektivləri müzakirə olunub. Tərəflər, həmçinin iqtisadiyyat və ticarət sahəsində əlaqələrin möhkəmləndirilməsinin vacibliyini vurğulayıblar.

Azərbaycanın XİN başçısı da "X" platformasında görüşlə bağlı paylaşım edib. Nazir qeyd edib ki, tərəflər Azərbaycanla Almaniyanın regionları arasında əməkdaşlığın möhkəmlənməsinə sadiq olduqlarını bildiriblər.

***

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Münxendə Türkiyə xarici işlər naziri Hakan Fidanla da görüşüb. Bu barədə Azərbaycan XİN-in "X" hesabında paylaşım olunub.**



Görüş zamanı Azərbaycan-Türkiyə müttəfiqlik tərəfdaşlığının bir sıra aspektləri, o cümlədən siyasi, təhlükəsizlik, iqtisadiyyat, kommunikasiyalar, eləcə də müxtəlif regional və beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlıq gündəmdə olub. Nazir regiondakı son vəziyyət və Azərbaycan–Ermənistan sülh prosesi barədə də məlumat verib.

***XQ***

# Azərbaycan XİN Serbiyanı təbrik edib

**Azərbaycan Xarici İşlər Nazirliyi Serbiyanı Milli Günü münasibətilə təbrik edib. Bu barədə nazirliyin "X" hesabında yazılıb.**

"Milli Günü münasibətilə strateji tərəfdaşımız Serbiya Respublikasına və onun xalqına ürəkdən təbriklərimizi çatdırırıq. Biz tərəfdaşlığımızı müəyyən edən köklü dostluğu və qarşılıqlı hörməti qeyd edirik", - paylaşımda bildirilib.

# Prezident İlham ƏLİYEV: Türk dünyasının ucu-bucağı yoxdur

*(əvvəli 1-ci səhifədə)*

Dövlət başçımızın ötən il iyunun 6-da TÜRKPA-nın nümayəndə heyətini qəbul edərkən dediyi "Türk dünyasının gücləndirilməsi, birləşməsi Türk dünyasını, Türk Dövlətləri Təşkilatını dünya miqyasında böyük bir güc mərkəzinə çevirəcək" ifadəsi, sadəcə olaraq, zamanın çağırışlarına cavab verməkdir . Çünki mövcud olan güc mərkəzləri böhran içindədir. Hərəsinin öz böhran çərçivələri var: "Bizim isə əksinə, potensialımız gündən-günə çiçəklənir. Qeyd etdiyim kimi, böyük coğrafiyadır, xəritəyə baxsaq görərik ki, Türk dünyasının ucu-bucağı yoxdur, böyük coğrafiyanı əhatə edir".

Prezidentin fikrincə, artan əhali, təbii sərvətlər, nəqliyyat yolları, aramızdakı birlik bizi daha da güclü edir. Bu birlik təbiidir, onun təməlində ortaq köklər var. Ona görə bu birlik bütün başqa birliklərdən daha qüvvətli, daha güclüdür. Yəni bizim birləşməyimiz etnik, mədəni köklər üzərindədir və biz, təbii ki, praktiki addımlarla bu birliyi gücləndirməliyik.

Ekspertlərin fikrincə, bu gün beynəlxalq aləmdəki anti-türk, anti-Azərbaycan əhval - ruhiyyənin əsas səbəblərindən biri də məhz türk xalqlarının birliyi və türkdilli dövlətlərin iqtisadi, siyasi, hərbi potensialının durmadan artmasıdır. Məhz bu səbəbdəndir ki, Azərbaycanın ənənəvi dostlarından olan ölkələrdən birinin siyasətçisi "qaşınmayan yerdən qan çıxararaq", Özbəkistan haqqında təhdidedici fikirlər səsləndirməsi, onun ardınca Rusiya Dövlət Dumasının MDB komitəsinin sədr müavininin "Özbəkistan KTMT-yə qayıtmalıdır və bunun vaxtıdır" kimi müstəqil dövlətin daxili işlərinə qarışması TDT-nin inkişafından yaranan qısqanclığın göstəricisidir.

Bu təhdidlərin nəticəsidir ki, Özbəkistan öz sərhədlərini bərkidir, ölkəyə giriş-çıxış qaydalarını sərtləşdirir, orduda dövlətin və dövlətçiliyin təbliğini gücləndirir. Ancaq bu türk dövlətinə diş qıcardanlar bir deyil, iki deyil. Özbəkistanda Qərbin də çox güclü maraqları var. Ekspertlərin fikrincə, Hindistan, Cənubi Koreya, Çin, Türkiyə, Avropa İttifaqı, Böyük Britaniya, ABŞ, Kanada və s. ölkələr Özbəkistana külli miqyasda investisiya qoyublar. Təbii ki, həmin dairələr öz vəsaitlərini riskə atmaq istəməyəcəklər...

Digər tərəfdən, Özbəkistanın son illərdə atdığı addımlar, xüsusilə Türkiyə ilə əlaqələrin yaxşılaşdırılması Ankaranın lazımi anda Özbəkistana lazımi dəstək verməsinə şərait yaradacaq. Üstəlik, son günlər yayılan məlumatlara görə Qazaxıstan və Özbəkistan arasında tarixi Turan ideyasının gerçəkləşdirilməsi istiqamətində müvafiq addımlar atılıb. Turan ideyasının gerçəkləşdirilməsi isə bütün türk dünyasının çəkici eyni nöqtəyə vurmasına təkan verəcək.

Yeri gəlmişkən, kütləvi informasiya vasitələrinin bir müddət əvvəl "Azərbaycan Françayzinq Assosiasiyası" İctimai Birliyinə istinadən yaydığı xəbərdə oxumuşduq ki, Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin vahid markalaşmaya keçid etməsi bu ölkələrin istehsal etdikləri məhsul, göstərdikləri xidmətə qarşı marağı daha da artıracaq.

Bildirilirdi ki, "Made in Turan" dedikdə TDT-yə üzv ölkələrin istehsal etdikləri məhsulların vahid markalaşmaya keçid etməsi başa düşülür. Bu marka üçün əldə olunacaq xüsusi güzəştlər sayəsində ölkələr arasında ticarət dövriyyəsi artacaq və iqtisadi əlaqələr möhkəmlənəcək. Bu brend, həmçinin Türk dünyası markalarının yeni dövrə keçid etməsidir. Həmin markalaşma siyasəti nəticəsində türk dövlətləri markaları qlobal marka olmaq yolunda əmin addımlarla irəliləyəcək, əldə olunacaq xüsusi güzəştlər sayəsində türk dövlətləri arasında olan ticarət dövriyyəsi artacaq. Adıçəkilən qurumun rəsmisi bildirib ki, həmin marka Türk dünyasının qlobal miqyasda mühüm iqtisadi güc olaraq tanınmasına öz töhfəsini verəcək.

Bu istiqamətdə olan "Turan" yeni ölkələrə açılır" adlı başqa bir xəbərdə isə oxuyuruq ki, Türkiyədən Qazaxıstan, Qırğızıstan, KKTC və Özbəkistana komissiyasız pul köçürmələri başlanıb. Bildirilir ki, Orta Asiya və xüsusilə Türk dövlətləri arasında pul köçürmə prosesini rəqəmsal dünyaya daşıyan "Turan" ilk ölkə genişlənməsini fevral ayında Azərbaycanla etdi. Türkiyədə yaşayan türk soydaşları üçün bir çox maliyyə əməliyyatlarını asanlaşdıran Turan soydaşların öz ölkələrinə pul köçürmə prosesini rəqəmsallaşdırması davam edir.

"Turan"ın Türk dövlətləri ilə bağlı təşəbbüsü haqqında danışan qurumun təsisçisi mətbuata açıqlamasında deyib: "Qaspıralı İsmayılın dil, fikir və iş birliyi missiyasına uyğun olaraq Turanla getdiyimiz yolda tək bir motivasiyamız vardı; Ölkəmizdə yaşayan soydaşlarımızın Türkiyə daxilində maddi imkanlarını artırmaq və öz ölkələrinə pul köçürmə prosesini Avropaya pul köçürməsindən fərqləndirmək. İndi biz xoşbəxtik ki, bu arzumuzu həyata keçiririk. Turan indi Türkiyədə yaşayan Azərbaycan türklərimizin, qazaxlarımızın, qırğızlarımızın, kipr türklərimizin və özbəklərimizin bütün ehtiyaclarına öz dillərində həll təklif edə bilən yeganə maliyyə proqramına çevrilib.

Xatırladaq ki, Turan Texnologiya Anonim Şirkəti 2022-ci ilin may ayında ərsəyə gəlmiş maliyyə texnologiyaları şirkətidir və bütün türk dövlətlərində yaşayan istifadəçilərə fayda verəcək yeni nəsil maliyyə tətbiqi olmaq məqsədilə fəaliyyətini davam etdirir.

Tarixi Turançılıq təfəkkürü və Türk Dövlətləri Təşkilatının həmin dəyərə verdiyi önəm haqqında olan fikirlərimizi Prezident İlham Əliyevin 2024-cü il fevralın 14-də keçirilmiş andiçmə mərasimində söylədiyi fikirlərlə tamamlamaq istəyirik: "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır".

Dövlət başçımız həmin nitqində beynəlxalq aləmdəki bədxahlarımız haqqında danışaraq demişdi ki, bizi heç yerdə gözləmirlər və bunu artıq gizlətmirlər: "Biz hətta, cəmi üç ölkənin yerləşdiyi Cənubi Qafqazda bu gün bu ayrıcı xətləri açıq-aydın görürük. Belə olan halda, bizi haradasa qəbul etmək istəməyənlərə biz baş əyməliyikmi? Qətiyyən, bu, olmayacaq! Bizim ailəmiz Türk dünyasıdır. Biz özümüzü çox yaxşı hiss edirik. Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələrlə qardaşlıq münasibətlərimiz var və bizim siyasətimiz Türk Dövlətləri Təşkilatını gücləndirməkdir. Bu, böyük coğrafiyadır, böyük ərazidir, böyük hərbi gücdür, böyük iqtisadiyyatdır, təbii sərvətlərdir, nəqliyyat yollarıdır, gənc əhalidir, artan əhalidir və bir soydan, kökdən olan xalqlardır. Bundan güclü birlik ola bilərmi? Əlbəttə ki, yox! Biz müştərək səylərlə elə etməliyik ki, Türk Dövlətləri Təşkilatı qlobal arenada önəmli aktora və güc mərkəzinə çevrilsin. Buna biz ancaq birlikdə nail ola bilərik".

***İttifaq MİRZƏBƏYLİ***

# Dövlət Statistika Komitəsində geniş kollegiya iclası



**Dövlət statistika orqanlarının 2024-cü ildəki fəaliyyəti və 2025-ci ildə qarşıda duran vəzifələrlə bağlı fevralın 14-də Dövlət Statistika Komitəsi aparatı şöbələrinin, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi, şəhər və rayon statistika idarələrinin rəhbərlərinin iştirakı ilə geniş kollegiya iclası keçirilib.**

Kollegiyanın sədri Tahir Budaqov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə 2024-cü ildə bütün sahələrdə sistemli və ardıcıl xarakterli islahatların həyata keçirildiyini, siyasi və iqtisadi idarəetmə metodlarının müasirləşdirildiyini, ölkəmizin dünyada nüfuzunun daha da artdığını diqqətə çatdırıb.



Tahir Budaqov ölkə başçısının milli statistika sisteminin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi ilə bağlı tapşırıqlarına uyğun olaraq Komitə tərəfindən həyata keçirilən islahatlar və qurumun 2024-cü ildəki fəaliyyəti barədə ətraflı məlumat verib. Qeyd edib ki, rəsmi statistika məlumatlarının müasir tələblərə uyğun hazırlanmasını, milli statistika sisteminin inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayan Dövlət Statistika Komitəsi 2024-cü ildə öz fəaliyyətini Nazirlər Kabineti ilə razılaşdırılaraq təsdiq edilmiş Statistik işlər proqramı əsasında qurub.

Bildirilib ki, Komitədə müxtəlif mövzular üzrə 32 adda illik statistik məcmuə və digər nəşrlər çap etdirilib, 52 təhlili məruzə və 125 mətbu-məlumat hazırlanıb.

MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 2024-cü ilin 5 dekabr tarixində keçirilmiş 71-ci iclasında qəbul edilmiş qərara əsasən, 2025-ci ildə sözügedən Şuraya rəhbərlik Azərbaycana keçib.

Kollegiya iclasına yekun vuran Tahir Budaqov Prezidentin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinin "Dövlət Nəzarəti İnformasiya Sistemi" vasitəsilə 2023-cü ilin yekunları üzrə qiymətləndirilməsinin nəticələrinə görə Komitənin mərkəzi icra hakimiyyəti orqanları arasında 1-ci mövqedə qərarlaşdığını diqqətə çatdırıb.

***XQ***

# "Femida Könüllüləri"nin I Ümumrespublika Forumu



Fevralın 15-də "Femida Könüllüləri" Təşkilatı və Azərbaycan Könüllü Təşkilatları İttifaqının birgə təşkilatçılığı ilə Femida Könüllülərinin I Ümumrespublika Forumu keçirilib.

Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov Ali Məhkəmənin təşəbbüsü ilə yaradılan "Femida Könüllüləri" Təşkilatının sıralarına hazırda 500-dən çox könüllünün qoşulduğunu diqqətə çatdırıb: "Bu il Prezident İlham Əliyev tərəfindən "Konstitusiya və Suverenlik İli" elan edilib və müvafiq qurumlara tapşırıqlar və tövsiyələr verilib. Əminəm ki, "Femida Könüllüləri" Təşkilatı bu fəaliyyətdə aktiv olaraq iştirak edəcək və nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsində müvafiq qurumlara dəstək verəcək".

Hazırda könüllülük hərəkatının bütün dünyada təqdir olunan, etimad göstərilən və hörmətlə qarşılanan hərəkatlardan biri olduğunu deyən ədliyyə nazirinin müavini Abiddin Hüseynov fikirlərinə belə davam edib: "Könüllülük fədakarlıq, əzmkarlıq deməkdir və bu işləri təmənnasız görməkdir. Bu fəaliyyət nəticəsində biz də könüllülər sırasından fərqlənən gəncləri gələcəkdə ədliyyə orqanları sıralarında görmək istəyir, onlara müxtəlif təkliflər edirik".

Gənclər Fondunun icraçı direktoru vəzifəsini icra edən Qədir Xəlilov, Vəkillər Kollegiyasının sədr müavini Pərviz Ələkbərov, Mediasiya Şurasının sədri Nadir Adilov çıxış edərək könüllülərin fəaliyyətindən məmnun olduqlarını, onlara hər zaman dəstək göstərilməsinin vacibliyini vurğulayıblar.

Forum çərçivəsində, həmçinin səmərəli fəaliyyətinə görə "Femida Könüllüləri" mükafatlandırılıblar.

***XQ***

# COP29-un prezidenti Aİ nümayəndəsi ilə iqlim fəaliyyətlərinin aktivləşdirilməsindən danışıb



**COP29-un prezidenti Muxtar Babayev Avropa İttifaqının iqlim və ekoloji diplomatiya üzrə xüsusi nümayəndəsi Entoni Aqota ilə iqlim fəaliyyətlərinin aktivləşdirilməsinin vacibliyini müzakirə edib.**

Görüş Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilib.

"Tərəflər iqlim fəaliyyətlərinin gücləndirilməsinin zəruriliyini və Bakı-Belen yol xəritəsinin məqsədlərinə nail olunması istiqamətində irəliləmənin yollarını müzakirə ediblər", - COP29-un "X" sosial şəbəkəsindəki paylaşımda qeyd olunub.

***XQ***

# USAID terroru və LGBT-ni dəstəkləyib

**ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) təsis olunduğu gündən humanitar fəaliyyət ilə deyil, ölkəsinin müxtəlif lobbi təşkilatlarının maraqlarının ifadəçisi kimi tanınıb. Bu qərəzli qurum QHT-lərə, media mənsublarına maliyyələr ayırmaqla onları asılı vəziyyətə gətirib. Sonra öz maraqlarını həyata keçirməyə çalışıb. Ölkələrin daxilindəki proseslərə bu yolla təsir göstərib. Bunu deməyə ortaya çıxan sənədlər, faktlar əsas verir.**

USAID Cənubi Qafqazda da pozucu fəaliyyəti ilə seçilib. O, müxtəlif yollarla ənənəvi dəyərləri dağıdaraq, üzdəniraq ideyaları təbliğ edib. Qonşu Gürcüstanda inqilab cəhdi də USAID-in məkrli planının tərkib hissəsi olub. 2020-ci ildə bu ölkədə keçirilən seçkilərin nəticələri ilə bağlı saxta hesabatlar hazırlanıb, seçkilərin saxtalaşdırıldığı iddia edilib. Qurum tərəfindən tez-tez maliyyələşdirilən Gürcüstan QHT-ləri ölkədə vəziyyəti gərginləşdirmək cəhdlərinə cəlb olunub. Nəticədə iqtidar müxalifət qarşıdurması pik həddə çatıb. Sonradan bu saxta iddiaların hamısı ifşa olunub.




Eyni proses 2024-cü il oktyabrın 26-da baş tutmuş parlament seçkiləri ilə bağlı da baş verib. Bununla bağlı Gürcüstanın Baş naziri İrakli Kobaxidze USAID tərəfindən maliyyələşdirilən "Beynəlxalq Ədalətli Seçkilər və Demokratik Cəmiyyət" (ISFED) QHT-ni nümunə gətirib. İ.Kobaxidze iddia edib ki, 2020-ci il parlament seçkilərində təşkilat cəmiyyətdə iğtişaşlar törətmək məqsədilə səsvermənin nəticələrinin paralel hesablanmasında saxtakarlığa yol verib: "Siz indi də proseslərin necə inkişaf etdiyini görürsünüz. İnqilab cəhdlərinin önündə məhz xaricdən maliyyələşdirilən QHT-lər dayanır. Bunlar USAID, NED (Demokratiyaya Dəstək Milli Fondu) tərəfindən maliyyələşdirilən təşkilatlardır. Onları artıq ABŞ-ın yeni administrasiyası da açıq şəkildə tənqid edir".

Kobaxidze yeni administrasiya dövründə ABŞ səfirliyinin, ilk növbədə, gürcü xalqına və Gürcüstan dövlətinə münasibətinin dəyişəcəyinə və səfirlik, USAID, NED və digər müvafiq strukturlar arasında mövcud olan çirkin koordinasiyaya son qoyulacağına ümid etdiyini deyib.

USAID-in Ermənistandakı fəaliyyəti də qərəzliliyi ilə seçilib. Bildirilib ki, Ermənistana maliyyə yardımının həcmi iki dəfədən çox – 120 milyon dollardan 250 milyon dollara qədər artırılacaq. Məlumata görə, vəsaitlər demokratik proseslər, regional əməkdaşlıq, fəlakət risklərinin idarə edilməsi, kibertəhlükəsizlik, ərzaq və enerji təhlükəsizliyi və s. kimi sahələrə yönəldiləcək. Rəsmi açıqlamalarda belə deyilir. Əslində, USAID-in Ermənistana ayırdığı vəsaitlərin böyük hissəsi başqa məqsədlərə yönləndirilib. Azərbaycan əleyhinə təbliğatın aparılması üçün istifadə edilib.

Deyə bilərik ki, ABŞ-ın Prezident Administrasiyasının USAID-in fəaliyyətini dayandırması haqqında qərarı təkcə bu təşkilatın fəaliyyət dairəsinin məhdudlaşdırılması deyil, eyni zamanda, Ermənistanın uzun illərdir beynəlxalq yardımlardan sui-istifadə etməsinin nəticəsi kimi qiymətləndirilməlidir.

Əlbəttə ki, ən çox qarayaxmalara məruz qalan ölkələrdən biri də Azərbaycandır. USAID dəfələrlə Azərbaycanı irqi ayrı-seçkilikdə ittiham edib, öz rəhbərinin dili ilə böhtanla dolu, humanitar fəaliyyətin ruhuna zidd olan bəyanatlar səsləndirib. Hazırda məhkəməsi gedən müharibə cinayətində təqsirləndirilənlərin azadlığa buraxılması və Ermənistanın hərbiləşdirilməsi barədə çağırışlar edib.

Bundan başqa, agentlik "vətəndaş cəmiyyətinə dəstək" adı altında bir sıra təxribatçı addımlar atıb. Ötən dövrdə təşkilatın ayırdığı 450 milyon dollar heç də yardım məqsədilə xərclənməyib.

Yerli mətbuatın araşdırmasına görə, bu təşkilat Azərbaycanda bir sıra KİV və QHT-lərin əsas donoru hesab olunur. Məsələn, qaçaqmalçılıqda ittiham olunan "Toplum TV", "Abzas Media" üzvlərinin qrant aldığı təşkilatlar arasında USAID-in də adı xüsusi qeyd edilir. Bu qurum ABŞ–Azərbaycan münasibətlərinə ciddi zərər vurmaqla yanaşı, regionumuzda gərginlik yaratmağa çalışıb. Azərbaycan QHT-lərindən USAID ilə əlaqədar ABŞ Prezidenti Donald Trampa müraciətdə deyilir: "ABŞ vergiödəyicilərinin pulları USAID-in korrupsiya yeminə çevrilib, Bayden–Blinken administrasiyasının qara şəbəkəsinin formalaşdırılması üçün istifadə olunub. Azərbaycan–ABŞ münasibətlərinin itirilmiş illərinə çevrilən Bayden–Blinken dövründə Azərbaycan cəmiyyətində USAID-in ölkədən qovulması, fəaliyyətinin dayandırılması ilə əlaqədar çağırışlar, ictimai qəzəb də artan xətt üzrə güclənib. USAID qrantları Azərbaycanda da ənənəvi, milli-mənəvi dəyərlərə təhqir mahiyyəti daşımaqla, ABŞ-ın bölgədəki imicinə və strateji maraqlarına zərbə vurub.

İctimailəşdirilən faktlar göstərir ki, 1991-ci ildən USAID Azərbaycanda müxtəlif adlar altında layihələrə 410 milyon ABŞ dollarından artıq vəsait xərcləyib. Yeni faktlar hazırda aktiv olan 17 milyon dollarlıq ABŞ-ın müxtəlif qrant layihələrində Azərbaycanın da adının keçdiyini göstərir.

Ümid edirik ki, siz USAID-in Azərbaycandakı cinayətlərinə də nəzər salacaq, ayrılmış qrantların təftişinin aparılmasına göstəriş verəcəksiniz".

Xatırlatmaq yerinə düşər ki, rəsmi Bakı dəfələrlə ermənipərəst təşkilatın anti-Azərbaycan mövqeyini, səsləndirdiyi bəyanatları sərt tənqid edib, ABŞ rəhbərliyinə bununla bağlı öz mesajlarını çatdırıb.

*

Qərb mediası açıq şəkildə yazır ki, USAID-dən MKİ əməkdaşları üçün "çətir" kimi istifadə olunub. "Bilirsiniz, MKİ 1947-1997-ci illər arasında 83 hökuməti devirdi. Bu, Yer üzündəki hökumətlərin üçdə biri deməkdir və onların əksəriyyəti demokratik idi", – bunu kiçik Robert Kennedi deyib. O bildirib ki, agentlik bütün dünyada totalitarizmin və müharibənin pis yayıcısına çevrilib: "Bu əməliyyatların əksəriyyətində USAID Amerika kəşfiyyatı ilə çiyin-çiyinə işləyib". Məsələn, Kubada bu qurum humanitar yardım göstərmək adı altında hökumətə qarşı genişmiqyaslı təxribat kampaniyası həyata keçirib. Xarici mətbuatın məlumatına görə, proqram iki əsas əməliyyatdan ibarət olub. Birincisi, rejim əleyhinə "ZunZuneo" adlı "sosial şəbəkə yaratmaq idi. İkincisi isə özünü turist və humanitar təşkilatın əməkdaşı kimi təqdim edən gizli agentlərin əlaqə saxladığı potensial dissidentləri işə cəlb etmək olub. Amerikalı agentlər adada kütləvi iğtişaşlar törətməyə cəhd edib. Bunula yanaşı, radikal sui-qəsdçilərin görüşləri İİV-in qarşısının alınması ilə bağlı seminarlar kimi maskalanıb.

USAID Boliviyada ölkə sakinlərini üsyana təhrik etmək üçün Evo Moralesin əleyhdarlarını maliyyələşdirib. Braziliyada agentlik sağçı amerikapərəst qüvvələrə üstünlüklər verəcək siyasi islahatlar üçün lobbiçilik edib. Bir-birinin ardınca rəngli inqilabların baş verdiyi Qırğızıstanda "demokratiyanın qorunmasına" milyonlarla dollar xərcləyib. BMT-də səsvermə zamanı ABŞ nümayəndələri USAID adından inkişaf etməkdə olan ölkələrin səfirlərini humanitar maliyyələşməni dayandıracaqları ilə açıq şəkildə şantaj ediblər. Bu ölkələrdən ABŞ-ın marağına uyğun səs vermələri tələb olunurdu. Bu, bir vaxtlar Yəmən ABŞ-ın anti-İraq qətnaməsini dəstəkləməkdən imtina edərkən baş vermişdi. Siyahını kifayət qədər uzatmaq da olardı. Bu siyasətdən ABŞ həm də qazanan tərəf oldu.

Onu qeyd edək ki, liberal "gündəm" dalğasında bəzi ölkələrdə amerikapərəst rejimlər hakimiyyətə gəldilər. Onlar Vaşinqtonun maraqlarına uyğun beynəlxalq siyasət yürüdüb, ABŞ korporasiyalarına yerli sakinlərdən milyardlarla dollar qazanmağa imkan verdilər.

***

Amerika büdcəsindən pullar, hətta terror təşkilatlarının maliyyələşdirilməsində istifadə olunub. Bunu, USAID-lə bağlı araşdırmalar ortaya çıxarıb. Belə ki, ABŞ-da qadağan olunmuş "Əl-Qaidə" terror təşkilatı ilə əlaqəli suriyalı silahlıların qidalanmasına vəsait ayrılıb. Təşkilatın gələcək lideri Ənvər əl-Avlakinin kollec təhsili tam şəkildə ödənilib. Həmin şəxs ABŞ kəşfiyyat orqanları tərəfindən 2001-ci il sentyabrın 11-də törədilən terror aktlarında, eləcə də 2000-ci illərin ikinci yarısında bir sıra hücumlarda iştirakda şübhəli bilinirdi. Sirrin üzə çıxmaması üçün terrorçu 2011-ci il sentyabrın 30-da Yəməndə ABŞ-ın pilotsuz uçuş aparatının endirdiyi zərbə nəticəsində öldürülüb.

Maraqlıdır, qlobal terrorizmlə mübarizəni əsas məqsədlərindən biri elan edən ABŞ hökumətinin nəzarətində olan bir qurum terrorçunu maliyyələşdirib. Bu cür maliyyələşdirmələrin həyata keçirilməsi isə ciddi suallar yaradır.

Həmçinin agentlik müxtəlif ölkələrdə gender və LGBT layihələrinə böyük həcmdə vəsaitlər ayırıb. Məsələn, Kolumbiyada transgender operasının maliyyələşdirilməsi, Peruda transgender komikslərinin hazırlanması, İrlandiyada LGBT mövzulu musiqili tamaşaların təşkil edilməsi, Qvatemalada cinsi dəyişiklik əməliyyatlarının dəstəklənməsi və inkişaf etməkdə olan ölkələrdə kontraseptivlərin (hamiləlik əleyhinə həblə) istifadəsi kimi layihələrə milyonlarla dollar ayrılıb. USAID-in ayırdığı vəsaitin bir hissəsi Serbiyada işçi kollektivləri və işgüzar dairələrdə gender bərabərliyinin təşviqinə və Əfqanıstanda narkotik maddələrin ixrac olunduğu rayonlara gübrələrin alınmasına yönəldilib. Bu sistem narkotik istehsalında daha çox istifadə olunub. Bunlara qarşı çıxmaq USAID tərəfindən sərt reaksiya ilə qarşılanıb. Məsələn, Gürcüstan parlamentinin LGBT təbliğatını və cinsiyyətin dəyişdirilməsini qadağan edən qanun layihəsini qəbul etməsi qurumun xoşuna gəlməmişdi.

Üzdəniraq qurumla bağlı bu faktlar yanvarın 20-dən bəri, yəni Tramp hakimiyyətə gəldikdən sonra üzə çıxanlardır. ABŞ rəsmilərinin açıqlamalarından isə aydın olur ki, USAID-in fəaliyyəti ilə bağlı araşdırmalar davam edəcək. Bu isə onu deməyə əsas verir ki, Bayden administrasiyası və Samanta Pauerin rəhbərlik etdiyi dövrdə USAID-in çirkin əməlləri ilə bağlı hələ çox faktlar üzə çıxacaq...

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# "Made in USAID" Ermənistanı




*(əvvəli 1-ci səhifədə)*

Zəruri haşiyə çıxaq ki, Prezident İlham Əliyev bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Birləşmiş Ştatların Co Bayden administrasiyasının Azərbaycanla bağlı əsas səhvini açıqlamışdı. Dövlətimizin başçısı bu baxımdan başlıca məqam kimi, rəsmi Vaşinqtonun Amerika–Azərbaycan münasibətlərini Amerika–Ermənistan münasibətlərinin qurbanına çevirməsi üzərində dayanmışdı: "Yəni Azərbaycana Ermənistan–Azərbaycan, ya da ki, Amerika–Ermənistan münasibətlərinin prizmasından yanaşırdı və o vaxta qədər əldə edilmiş yaxşı nəticələr kölgədə qaldı, bu birincisi. İkincisi, Azərbaycana qarşı ədalətsiz mövqe sərgiləmişdir, xüsusilə Qarabağ məsələsi ilə bağlı və bu, həm ədalətsiz, həm də ki, ikili standartlara əsaslanan mövqe idi. Çünki mən Amerika nümayəndələrinə dəfələrlə deyirdim və açıq da deyirdim, mətbuatda da, siz Ukraynanın ərazi bütövlüyünü ikiəlli dəstəkləyirsiniz, silahlar verirsiniz, milyardlarla pul verirsiniz. Biz öz ərazi bütövlüyümüzü bərpa etmişik, niyə siz bizi cəzalandırmaq istəyirsiniz? Buna cavab verin. Cavab da yox idi. Cavab da bəllidir ki, bu, ikili standartlardır. Eyni zamanda, hesab edirəm, Bayden administrasiyasının səhvlərindən biri də o idi ki, Amerikaya olan inamı böyük dərəcədə sarsıtdı, özü öz əməlləri ilə. Məsələn, elə Əfqanıstan məsələsinə qayıtsaq, Azərbaycan birinci ölkələrdən idi ki, Əfqanıstandakı missiyaya qoşulmuşdu və həm hərbi kontingent göndərmişdi və dəfələrlə onu artırmışdı, həm də Amerika üçün çox vacib olan nəqliyyat-logistika məsələlərini də həll etmişdi. Biz onlara lazım olana qədər 907-ci düzəliş - sanksiya qaldırılırdı, biz ki, lazım olmadıq, tətbiq etdilər. Yəni, bu nədir? Bunun bir adı var: nankorluq. Bu, nankorluqdur və hansı inamdan söhbət gedə bilər? Hansı uzunmüddətli əməkdaşlıqdan söhbət gedə bilər?"

Bəli, Prezident İlham Əliyevin yanaşması son dərəcə dəqiqdir. ABŞ Azərbaycana məsələyə özünün Ermənistanla münasibətləri pəncərəsindən baxırdı və bu "pəncərədə" əsas rolu USAID oynayırdı. Nəticə göz önündədir. Dövlətimizin başçısının vurğuladığı kimi, ölkəmizin Amerikaya inam hissi sarsılıb. Yəni USAID Birləşmiş Ştatlara etimadın aradan qalxmasında da müstəsna "rol"a sahibdir. Təşkilat Ermənistanı Cənubi Qafqazda demokratiya qalası qismində göstərməklə, Azərbaycanı, o cümlədən Gürcüstanı da aşağılamaq yolunu tuturdu. Əlbəttə, belə yanaşma Birləşmiş Ştatlar kimi super gücə qətiyyən yaraşmayan tərzdir.

USAID-in ölkəmizə qarşı fəaliyyəti dezinformasiya, yalan və şantaj üzərində qurulmuşdu ki, bu da Bayden administrasiyasının mövqeyinin nisbətən çılpaq şəkildə ortaya qoyulması idi. Ən başlıcası isə təşkilat ölkəmizin ərazi bütövlüyünü şübhələndirirdi. Məsələn, Ermənistana, guya, Azərbaycan tərəfindən təcavüz törədildiyinə dair saxta gündəmi tirajlayan USAID vaxtilə Qarabağdakı terrorçu rejimin mövcudluğuna "humanitar" don geyindirmək naminə dəridən-qabıqdan çıxırdı. Bu mənfi meyil özünü xüsusilə ölkəmizin qeyri-hökumət təşkilatları təmsilçilərinin Laçın yolundakı aksiyasını bölgə erməniləri üçün "humanitar fəlakət" olaraq təqdim edilməsində qabarıq göstərmişdi. Bundan başqa, USAID ümumən qondarma, artıq varlığına son qoyulmuş "Dağlıq Qarabağ Respublikası"nın legitimləşdirilməsinə baş vurmuşdu. Prosesdə qurumun şefi Samanta Pauerin rejimdə "dövlət naziri" oyuncaq postunu tutmuş rusiyalı milyarder Ruben Vardanyanla münasibətləri başlıca rol oynamışdı.

Qeyd edək ki, USAID-in maliyyəsi ilə bəslənən Qərb mediası vaxtilə Rubenin təbliğatına girişmişdi. Doğrudur, BBC Vardanyanla separatçı rejimin iflasından əvvəlki müsahibəsində onu, necə deyərlər, "ağ yuyub qara sərsə" də, məlum idi ki, belə bir şəxsin efirə çıxarılması məqsədlidir. Media orqanı onu Ostap Bendersayağı məşhurlaşdırmaq istəmişdi ki, haqqında söz açdığımız legitimləşmə reallaşsın.

Digər tərəfdən, təsəvvür edin, az qala, bütün dünya Ukrayna ilə müharibəyə görə Rusiyaya sanksiyalar tətbiq etdiyi bir şəraitdə, Ermənistan ölkənin qadağalar altında olan məhsullarının xaricə satışını reallaşdırırdı. Yəni İrəvan, faktiki olaraq, rus mallarının təkrar ixracını gerçəkləşdirirdi. Nəinki gerçəkləşdirir, bu "biznes" Paşinyan iqtidarına külli miqdarda vəsait qazandırırdı. Nəticə etibarilə Ermənistan iqtisadi artım tempinə və ticarət dövriyəsinə görə üst pillələrə qalxırdı.

Belə bir durumda rəsmi İrəvana qarşı beynəlxalq təpkilər artmalı idi. Ancaq USAID buna yol vermirdi. Necə? Çox sadə. Qurum Azərbaycanı "Rusiya qazını gizli yolla Avropaya çıxaran ölkə" kimi təqdim edirdi ki, diqqətlər Ermənistanın üzərindən çəkilsin. Bu cür yaramaz təbliğata ölkəmizin, guya, etnik təmizləmə həyata keçirən məmləkət qiyafəsində təqdimatı seqmentinin əlavə olunması vəziyyəti bir qədər də dramatikləşdirmək məqsədi güdmüşdü.

USAID-in ermənipərəst yanaşmasının bir göstəricisi haqqında söz açdıq. Bildirdik ki, qurum regionda Ermənistanı demokratiyanın qalası obrazında göstərir və onun müdafiəsinin vacibliyini qabardırdı. Kimdən müdafiə olunmalı imiş? Əlbəttə ki, avtoritar kimi göstərilən "Azərbaycan hakimiyyətinin işğalçı həmlələrindən". Mövcud təbliğat çərçivəsində ölkəmizdə seçkilərin, guya, qeyri-demokratik keçirildiyinə dair rəyin formalaşdırılması da ermənipərəst təəssübkeşliyin növbəti təzahürü idi.

Bəli, bütün bu kimi oyunbazlıqlara görədir ki, Azərbaycanda ABŞ-a inam və etimad tamamilə sıradan çıxmışdı. Ona görə də Prezident İlham Əliyev bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində Birləşmiş Ştatların əvvəlki administrasiyasının fəaliyyətindən söz açarkən, kifayət qədər, sərt hesab edilə biləcək fikirlər səsləndirmişdi: "Ona görə Azərbaycan cəmiyyətinin, bütün ölkələrin ümidləri ondadır ki, bu əxlaqsızlığa, mənəviyyatsızlığa son qoyulacaq və cəmiyyətlər, hansılar ki, Azərbaycan kimi ənənəvi dəyərlər üzərində qurulub, onlar bu kənar təsirdən yaxalarını qurtaracaqlar..."

Sonda bir vacib məqama da diqqət yetirək. USAID altmış illik bir təşkilatdır. Heç şübhəsiz, indiyədək keçdiyi bəlli yol, ABŞ adına müsbət mənada dəyərləndirilən fəaliyyəti olub. Ancaq qurum o qədər bərbad işləyib ki, Tramp Administrasiyası onun tutduğu yolu ekstremizm, terrorçuluq nöqteyi-nəzərindən qiymətləndirib. O zaman belə neqativ qiymətləndirməni doğurmuş amillərin üzərində dayanılması vacibdir. Sadaladıqlarımızı nəzərə alsaq, amillərdən biri də aşkar ermənipərəstlikdir. Ona da şübhə yoxdur ki, Birləşmiş Ştatların yeni iqtidarı bu məqama da həssas yanaşacaq və USAID-in Ermənistanla bağlı fəaliyyətinin təftişini ayrıca aparacaq. Buna xüsusi ehtiyac var. Çünki qurumun ölkəyə ayırdığı vəsait əvvəldə vurğuladığımız fikri gündəmə gətirir. Söhbət Ermənistanın "Made in USAID" məhsulu olmasından gedir. Əlbəttə ki, zay məhsuldan. Söhbət həm də USAID-in zay Ermənistan quruculuğunda ölkə iqtidarı ilə həmrəyliyindən gedir. Axı o qədər maliyyə ölkəyə baş nazir Nikol Paşinyanın "demokratiyanın qaldiatoru" obrazına görə ayrılmırdı. Obraz yalnız vasitə idi. Şübhəsiz, həmin "qladiator" S.Pauer və komandasında, "görüm-baxım" edirdi və bu sayaq faktların da həqiqət işığına çıxacağına ümid bəsləyirik.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “USAID”-in media imperiyası

**ABŞ Demokratlar Partiyası qlobal səviyyədə ictimai rəyi nəzarətdə saxlamaq, öz siyasətinə uyğun təbliğat və təşviqat qurmaq üçün üçmərhələli strukturlar formalaşdırıb. Buraya ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən lokal statuslu media subyektləri, regional media subyektləri və transmilli media subyektləri daxildir. Lokal, regional və transmilli media subyektlərinin ələ alınıb Demokratlar Partiyasının siyasətinə tabe etdirilməsi prosesində USAID xüsusi rol oynayıb. Bu təşkilat “qrant” adı ilə media subyektləri, QHT və jurnalistlərə maddi vəsait ötürüb, onları özünün təsir dairəsinə salıb. Həmçinin ayrı-ayrı ölkələrdən fərdi jurnalistləri peşə kursları keçmək adı ilə təlimlərinə cəlb edib, onlara informasiya təxribatları törətmək bacarıqları aşılayıb.**



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin (DOGE) rəhbəri İlon Maskın açıqlamalarından belə nəticə çıxır ki, USAID bu kontekstdə 700-ə yaxın media subyektini, 300-ə yaxın jurnalist təşkilatını, 6200 nəfərdən çox fərdi jurnalisti təsir dairəsinə salaraq idarə edib.

Maskın rəhbərlik etdiyi idarənin açıqladığı bu rəqəmlər şübhə doğurmur. Amma bu statistikanın bütöv mənzərəni əks etdirdiyini düşünmək də sadəlövhlük olardı. Məsələ ondadır ki, DOGE öz siyahısına yalnız media subyektlərini, jurnalistləri və jurnalist təşkilatlarını daxil edib. Amma USAID-in təbliğat və təxribat şəbəkəsinin tərkibi digər komponentləri də əhatə edir. Buna misal olaraq, agentliyin Cənubi Qafqaz regionunda quraşdırdığı kombinasiyanı nümunə göstərmək olar. Belə ki, USAID-in Cənubi Qafqaz regionunda tətbiq etdiyi regional statuslu mərkəzlərin çeşidi daha genişdir. Məsələn, burada “JAM-news.net” xəbər portalı, “OC media” (Open Caucasus Media) qismində ələ alınmış regional statuslu media subyektləri ilə yanaşı, həm də oxşar funksiyanın daşıyıcısı olan GIPA (Georgian Institute of Public Affairs) yaradılıb.

Bu media subyektləri, QHT, fond və institutların funksiyaları təkcə informasiya yaymaqla məhdudlaşmır. Onlar Qafqaz dövlətlərində ABŞ Demokratlar Partiyasının siyasətinə boyun əyən auditoriyanın formalaşdırılmasında, müvafiq kadrların seçilib müəyyənləşdirilməsində, yetişdirilməsində və yönləndirilməsində mühüm rol oynayırlar. Bu kontekstdə GİPA-nın fəaliyyəti xüsusilə diqqət çəkir.

Qafqaz Jurnalistika və Media İdarəetmə Məktəbi (GIPA-nın nəzdində mövcud olan 4 departamentdən biri) USAID-in siyasətinə alət olan yerli kadrların “təlim-tədris” ehtiyaclarını ödəyir. Məktəbdə təhsil almaq istəyən şəxslər yerli müxalifət partiyalarının təqdimatı əsasında əvvəlcə ABŞ-ın həmin ölkə üzrə səfirliyində “müsabiqədən keçirlər”. Bu müsabiqələr istisnasız olaraq USAID-in yerli təmsilçisinin iştirakı ilə baş tutur. Müsabiqədə səfirlik təmsilçisi ilə yanaşı, USAID nümayəndəsi də iştirak edir və zəruri şəxslərin seçilib müəyyənləşdirilməsinə nəzarət edir. Daha sonra “seçilmiş şəxslər” GIPA-ya göndərilirlər. Burada pulsuz təhsil və təqaüdlə təmin edilirlər. Bu təhsil üzrə təqaüd agentlik tərəfindən ödənilir.

GİPA-nın jurnalistika bölümündə təhsil alan “tələbələr” “OC media”da təcrübə keçir, informasiya emalı, informasiya manipulyasiyaları və informasiya təxribatları üzrə təkmilləşdirilirlər. “OC media” redaksiyasında çalışmaq onlar üçün təcrübə toplamaqdan başqa, həm də əlavə maliyyə mənbəyi rolunu oynayır. Tələbələr GIPA-da təhsil dövründə təqaüd, “OC media”da isə maaş və qonorarla təmin edilirlər. Onlar öz ölkələrindən nə qədər çox neqativ informasiya yazsalar, bir o qədər artıq qonorar qazanırlar.

“Açıq Cəmiyyət İnstitutu–Yardım Fondu” (Soros Fondu) da uzun illər ərzində GIPA tələbələri üçün xüsusi təqaüd proqramları reallaşdırıb. Tələbələri öz ölkələrindən neqativ informasiya yazmaq üçün stimullaşdırıb. Beləliklə, yetkinlik yaşlarından GIPA və “OC media” auditoriyalarına gətirilən “yerli milli kadrlar”ın burada beyinləri yuyulur. Onlar anti-milli ruhda yetişdirilirlər. İlk 2 mərhələdə – GIPA və “OC media” platformalarında özünü doğruldanlar növbəti mərhələdə digər instansiyalara göndərilərək, USAID maraqlarının təmin edilməsi üçün mübarizə aparırlar.




Ehtimal etmək olar ki, Maskın komandası növbəti mərhələlərdə bu məqamlara da diqqət ayıracaq, jurnalistlərin “təlim-təhsil proqramları” üçün USAID tərəfindən ayrılan vəsaitlərin də statistikasını açıqlayacaq. Həmin statistikaların açıqlanması fonunda USAID-in media imperiyasının daha bir istiqamət üzrə törətdiyi təxribatların mənzərəsi üzə çıxacaq.

Bu cür kəm-kəsirə baxmayaraq, Donald Tramp komandasının USAID barədə açıqladığı indiki hesabatlar da kifayət qədər orijinal faktlarla zəngindir. Məsələn, bu hesabat açıqlanmayana qədər yəqin ki, heç kim “The New York Times” , “Politico”, “Associated Press”, BBC, “Reuters”, “Frans-Press” kimi media nəhənglərinin USAID-dən “ianə” aldığını təsəvvür edə bilməzdi. Mask komandası USAID-lə yanaşı, bu media nəhənglərini də ifşa edir, onların gerçək simasını dünyaya göstərir. İndiyədək bu media subyektləri dünyaya ən “müstəqil”, ən “qərəzsiz” və “obyektiv” media qurumları kimi təqdim ediliblər. Hansı ki, Maskın son açıqlamaları bu media qurumlarının da USAID-dən maliyyə aldıqlarını, onun siyasətinə boyun əydikləri, təxribatçı kampaniyalarda iştirak etdikləri faktını ortaya qoyur. Bəlli olur ki, “The New York Times” USAID-dən təkcə bir il ərazində (2024-cü ildə) 3,1 milyon dollar, “Politico” 8 milyon dollar, “Associated Press” 19 milyon dollar, BBC 2,6 milyon funt-sterlinq, “Reuters” 9 milyon dollar, “Frans-Press” 447 min dollar vəsait alıb, onun layihələrini icra edərək, tapşırıqlarını yerinə yetiriblər.

# Səbrin də bir həddi var

**Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır. Onlar bunu nə qədər tez başa düşsələr, o qədər yaxşıdır. Biz belə vəziyyətdə qala bilmərik. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvana niyə müxtəlif, başqa yollarla getməliyik? Bizim birbaşa əlaqəmiz olmalıdır və bu əlaqə Ermənistanın suverenliyini şübhə altına qoymur. Sadəcə olaraq, onlar 10 noyabr bəyanatının müddəalarını yerinə yetirməlidirlər. Orada hər şey açıq-aydın göstərilib. Biz dörd ildən çoxdur ki, səbir göstəririk. Dörd ildən çoxdur istəyirik ki, bu, danışıqlar yolu ilə həll olunsun. Biz nə qədər gözləməli olacağıq və nə üçün gözləməliyik?**

**Prezident İlham Əliyevin bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsindən**

**Məlum həqiqətdir ki, əzəli torpağımız olan Zəngəzurun XX əsrin əvvəllərində zorla Azərbaycandan qoparılması Türk dünyasının coğrafi cəhətdən parçalanması məqsədini güdürdü. Bu planın həyata keçməsində İrəvan xanlığının ərazisində özlərinə dövlət yaratmış ermənilərdən daha çox Qərb, Osmanlı imperiyasının zərbini görmüş xristian dünyası maraqlı idi.**

O zaman onlar istədiklərinə nail oldular. Çünki Osmanlı dövlətinin yerində qurulmuş Türkiyə Cümhuriyyəti Birinci Dünya müharibəsində zəifləmiş, Azərbaycan isə müstəqilliyini yenicə elan etmişdi. Bir yerdə səbir göstərməyə məcbur olduq. Sonra hayların təəssübkeşinə çevrilmiş sovetlərin soydaşlarımızın Zəngəzurdan, Ermənistan adlanan respublikanın digər bölgələrindən deportasiyasına dözməli olduq.



Daha sonra yenə Qərbin körüklədiyi Qarabağ münaqişəsi, müharibəsi və işğal. Bu dəfə tarix 30 ilə yaxın səbrimizi sınağa çəkdi. Amma ədalətsizcəsinə məhrum edildiklərimizə baxıb yavaş-yavaş qəddimizi dikəltdik, gücləndik və nəhayət, səbrimizi daşıranlara həddini göstərməyi bacardıq.

* * *

Bizlərdə “yol böyüyündür”, – deyimi var. Savaş meydanında qalibiyyət qazanmış xalqın, ordunun və onun sərkərdəsinin də yolu birinci keçmək haqqı var. Həm də bu yol onun doğma torpağının üzərindən keçirsə. İndi məğlub Ermənistan bizə Naxçıvana yol vermək istəmir. Daha doğrusu, vermək istəyir, amma bu zaman şərtlərini irəli sürür. Baxmayaraq ki, 44 günlük müharibənin sonunda kapitulyasiya aktını – 10 noyabr 2020-ci il tarixli Bəyanatı imzalamış Ermənistan hakimiyyətinin boynuna Azərbaycanın Qərb rayonlarından Naxçıvana maneəsiz keçidin təmin edilməsi öhdəliyi qoyulub, bugünədək İrəvan buna əməl etməkdən boyun qaçırır. Bu zaman ən müxtəlif bəhanələr gətirir. Misal üçün, dəhlizdən keçəcək qatarlardakı, maşınlardakı yüklərin kim tərəfindən və necə yoxlanılacağı ətrafında diskussiya aparırlar.

“Azərbaycandan və yaxud digər ölkələrdən Ermənistan ərazisi vasitəsilə daşınan istənilən yük bu və ya digər şəkildə nəzarətə götürülməlidir”. Bunu Hayastan parlamentində təşkil edilən ənənəvi brifinqlərin birində iqtidardakı “Mülki müqavilə” partiyasından olan deputat, parlamentin Avropaya inteqrasiya üzrə daimi komissiyasının rəhbəri Arman Eqoyan deyib.

Jurnalistlər Paşinyanın partiyadaşına sualı bu formada veriblər: “Əgər nəqliyyat dəhlizi açılsa, Azərbaycandan tranzit necə həyata keçiriləcək və Bakının təkid etdiyi, yüklərin və sərnişinlərin maneəsiz keçidinə imkan veriləcəkmi?” Hay parlamentari cavabında bildirib ki, Ermənistan ərazisindən daşınan istənilən yük müəyyən gömrük-sərhəd prosedurundan keçməlidir: “Biz buna “yoxlama” deməyəcəyik, amma müəyyən nəzarət mexanizmi olmalıdır. Ermənistan Respublikası bilməlidir ki, onun ərazisindən nə daşınır. Hazırda bunun üçün bütün lazımi texniki vasitələr mövcuddur. “Yoxlama” anlayışı kifayət qədər geniş mənalı ifadədir. Siz həm yükü açıb yoxlaya bilərsiniz, həm də skanerdən istifadə etməklə nəzarət edə bilərsiniz”.

Hayların baş naziri Paşinyan da bu məsələdə təxminən Eqoyanın açıqlamasına yaxın mövqedən çıxış edir.

* * *

“Ermənistan Baş naziri Nikol Paşinyan yəqin anlayır ki, Zəngəzur dəhlizinin açılmasını yubatmaqla özünün də elan etdiyi “sülh qovşağının”, Prezident İlham Əliyevin təbirincə desək, “bir qara qəpik” dəyəri olmayacaq”. **Bunu mövzu ilə bağlı XQ-yə açıqlamasında “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi icmalçı Elxan Şahinoğlu** bildirir. Ekspert xatırladır ki, Bakının Tehranla razılaşması var, dəhliz İran ərazisindən Araz çayının cənub sahili ilə keçəcək, körpünün inşası bitmək üzrədir, yollar asfaltlanıb: “Bu yol tam gücü ilə işə düşdükdən sonra rəsmi Bakının keçmiş illərdə olduğu kimi, Zəngəzur dəhlizində israrına ehtiyac qalmayacaq. Bu baş verməsin deyə, Paşinyan İlham Əliyevin “maneəsiz dəhliz” yanaşmasını qəbul etmək həvəsindədir. Təsadüfi deyil ki, baş nazir “Ermənistan Naxçıvanla Azərbaycanın qərb hissəsi arasında maneəsiz dəmir yolu əlaqəsinin əleyhinə deyil” fikrini



səsləndirib. Ancaq Paşinyan bu cümlədən sonra “amma bu, Ermənistanın yurisdiksiyasından yan keçmək demək deyil” ifadəsini də işlədib. Böyük ehtimalla Paşinyan bu əlavəsi ilə özünü müxalifətin və diasporun ittihamlarından sığortalamağa çalışır.

Məsələ burasındadır ki, Zəngəzur dəhlizindən maneəsiz keçidi qəbul etməyə hazır görünən Paşinyan bu halda Ermənistan yurisdiksiyasını tətbiq edə bilməyəcək. Paşinyan bunun əvəzinə Azərbaycandan Ermənistan üçün də Rusiyaya maneəsiz keçid istəyə bilər. Amma bunlar fərqli məsələlərdir. Zəngəzur dəhlizi Azərbaycanın materik hissəsinin ayrılmaz hissəsi olan Naxçıvanla birləşdirir. Bu, Ermənistan qatarlarının və maşınlarının eyni qaydada Azərbaycan ərazisindən maneəsiz keçidi ilə bərabər tutula bilməz”.

E.Şahinoğlu əmindir ki, bütün hallarda Paşinyan Zəngəzur dəhlizi ilə bağlı addım barədə düşünür. Onun sözlərinə görə, baş nazirin “müasir dünya bütün istiqamətlərdə maneəsiz hərəkəti təmin etmək üçün daima çalışır” sözləri də bundan xəbər verir: “Paşinyanın İrəvanın Azərbaycana öz təkliflərini göndərməsi və Bakıdan cavab gözləməsi ilə bağlı dediklərində də diqqət çəkən məqamlar var: “Onlar (Bakı) bunu necə adlandıracaq (kommunikasiyaların açılması üzrə), biz nə adlandıracağıq, bu başqa mövzudur. Qərar nə olursa-olsun, biz onu öz, onlar da öz adı ilə çağıracaq. Vacib olan məsələnin mahiyyətidir”.

Görünür, Paşinyan Naxçıvana maneəsiz keçidi təmin edəcək dəhlizə ayrı “ad” vermək istəyir ki, daxildən və xaricdən təzyiqlərlə üzləşməsin. Əslində, Azərbaycan üçün dəhlizin necə adlanacağının fərqi yoxdur. Əsas odur ki, vətəndaşlarımız və nəqliyyat vasitələrimiz üçün maneəsiz keçid mövcud olsun. Yəni Azərbaycan vətəndaşları pasport yoxlamasına məruz qalmadan qatarla və maşınla Naxçıvana rahat keçə bilsinlər.

* * *

Azərbaycan Naxçıvana maneəsiz keçid məsələsinin mümkün qədər tez həllini tapması, bunun beynəlxalq hüquq normaları çərçivəsində baş verməsi üçün bütün lazımi addımları atıb və atmaqdadır. Bu məsələnin ləngiməsi həm də regionda sülh və əməkdaşlıq mühitinin bərqərar olmasına öz mənfi təsirini göstərir. Aydın məsələdir ki, hadisələrin bu məcrada davam etməsi Cənubi Qafqazın söz sahibi və qalib ölkəsi olan Azərbaycanın milli maraqlarına, mənafelərinə cavab vermir.

Ermənistan hökumətinin başçısı Azərbaycanla sülh sazişinin imzalanması, normallaşma prosesinin davam etməsi və s. məsələlər üzrə əməkdaşlığa dair qərar verməkdə çətinlik çəkdiyi kimi, Zəngəzur dəhlizi ilə bağlı da tərəddüd edir. İrəvan anlamaq istəmir ki, bu məsələnin həlli daha çox Azərbaycan və Ermənistanın marağının təmin olunması üçündür. Eyni zamanda, regionətrafı ölkələrin maraqlarının kəsişmə nöqtəsinə çevriləcək Zəngəzur dəhlizi reallaşarsa, bu, perspektivdə hamının xeyrinə olacaq. Ermənistan hakimiyyətinin ənənəvi olaraq özünə kənarda “ağsaqqal”, “sponsor”, “yolgöstərən” axtarışı həmişə uğursuz sonluqla bitib. Bunu tarixi faktlar Ermənistan adlı dövlət yaranan gündən dəfələrlə təsdiqləyib.

44 günlük Vətən müharibəsi, 2023-cü ilin sentyabrında 23 saatlıq antiterror tədbirlərindən sonra yaranan yeni reallıqlar fonunda Zəngəzur dəhlizi yenidən Türk dünyasının birləşdiricisi rolunu oynayacaq. Bundan digər ölkələr, o cümlədən Ermənistan da çoxlu fayda götürəcək. Təki Paşinyan hökuməti daşı ətəyindən töksün, Türkiyə və Azərbaycana qarşı ərazi iddalarını konstitusiyalarından və beyinlərindən silib atsınlar.

Dörd-beş ay bundan əvvəl Ermənistan xarici işlər nazirinin adının Türkiyədə yerləşən dağın adından (Ararat – Ağrıdağ) götürülməsinə ironiyalı replika yazmışdım. İndi isə deyə bilərəm ki, cənab Mirzoyanın adının özü Türkiyəyə qarşı ərazi iddiası deməkdir. Bəlkə onu Ağrıdağ Mirzoyan adlandırmaq daha məqsədəuyğun olardı. Amma, bu, yenə azərbaycanlı jurnalistin ironiyasıdır.

Azərbaycan Cənubi Qafqazda sülh və əməkdaşlığın tərəfdarıdır. Bakı İrəvanın buna maneəçilik törətməməsini, Türkiyə ilə Azərbaycan, Azərbaycanla Naxçıvan arasında coğrafi maneə kimi fəaliyyət göstərməməsini istəyir. Bunun ən ümdə şərtlərindən biri Zəngəzur dəhlizinin qeyd-şərtsiz açılmasıdır.

Yazımıza nöqtəni Prezident İlham Əliyevin sözləri ilə qoyuruq: “Mən bir dəfə demişəm, onlar gərək bizi əsəbləşdirməsinlər və başa düşsünlər ki, burada söz sahibi bizik və Cənubi Qafqazda Azərbaycan aparıcı iqtisadiyyatdır, aparıcı hərbi gücdür və aparıcı dövlətdir. Bugünkü dünyada güc amili ön plandadır və bunu heç kim unutmasın”.

***İmran BƏDİRXANLI***
***XQ***

# Milli ideya və milli maraqlar

## *Prezident İlham Əliyevin Çinin CGTN telekanalına müsahibəsinin siyasi-nəzəri təhlili*




**II MƏQALƏ**

### Milli özşüur

Milli ideya ümumi halda milli özşüurun sistemli ümumiləşdirilməsidir. Milli özşüur toplumun özü haqqında təsəvvürlərin cəmidir. Bu keyfiyyətdə milli özşüur cəmiyyətin bütün fəaliyyət sferalarını – sosial, siyasi, mənəvi, mədəni, əxlaqi, ideoloji və s. sahələri özündə ehtiva edir. Bu mənada, milli ideya milli özşüurun yüksək konseptual səviyyədə yığcam və fokuslanmış ifadəsidir ki, xalqın (etnosun, qövmün, millətin) mövcudolma mənasını əks etdirir. Deməli, milli ideyanın mənbəyində milli özşüur dayanır ki, burada tarixi, psixoloji, sosial, siyasi, mədəni, mənəvi-əxlaqi, ideoloji məqamlar hər bir dönəmdə konkret məzmun alır və bu keyfiyyətdə özünün mənası olur.

Milli ideyanın funksiyaları çoxdur, onların sırasında xalqı birləşdirməyin ayrıca yeri və rolu vardır. Xüsusilə, müasir tarixi dönəmdə toplumu real olaraq birləşdirə bilən milli ideya perspektivlidir. Müstəqil dövlətlər bu səbəbdən öz milli ideyalarını müəyyənləşdirməyə strateji məsələ kimi baxırlar. Çünki indiki xeyli dərəcədə xaotik, qeyri-müəyyənliklər və risklərlə dolu, sürətlə dəyişən dünyada xalqı birləşdirməyin real modelini müəyyən etmək dövlət üçün də həyati əhəmiyyətli məsələdir. Politoloqlar buradan “dövlət üçün həyati əhəmiyyəti olan məsələlər” anlayışına xüsusi məna verirlər.

Dövlət üçün həyati əhəmiyyəti olan məsələləri xarakterizə edərkən milli dövlətin mədəni tarixi birliyi saxlaması vəzifəsi xüsusi qabardılır. Bu da avtomatik olaraq ölkənin ictimai və dövlət institutlarının sabit fəaliyyətinin təmin edilməsi ilə yanaşı, inkişafını da nəzərdə tutur.

Vurğulanan kontekstdə müasir dövlət üçün həyati əhəmiyyət daşıyan məsələlər kimi daxili siyasi, mənəvi, mədəni, ideoloji, konfessional və etnik birliyi təmin etməklə xarici dağıdıcı təsirlərə qarşı dayanıqlı immunitetə malik olmağı göstərmək olar. Xarici təsirlər dedikdə müxtəlif növ təcavüzləri, terror aktlarını, informasiya-kommunikasiya və ekoloji problemləri nəzərdə tuturlar. Son olaraq, hər bir müstəqil dövlət üçün milli maraqlarına uyğun strateji sabitliyi təmin etmək həyati əhəmiyyətli məsələ kimi qəbul edilə bilər.

Bu qısa ümumi nəzəri izahlar Prezident İlham Əliyevin Çin telekanalına verdiyi müsahibədə dövlət başçısının irəli sürdüyü tezislərin əhəmiyyətini anlamağa istiqamət verir.

### Güclü iqtisadiyyat və daxili birlik

Prezident İlham Əliyev jurnalistin Azərbaycanın dövlət və cəmiyyət olaraq dayanıqlı mövqeyinin nədən ibarət olduğu haqqında suala maraqlı və ümumiləşdirici cavab vermişdir. İlham Əliyev demişdir: “Biz ən başdan, müstəqilliyimiz bərpa ediləndən bəri olduğumuz yerdəyik. Biz güclü iqtisadiyyat, yeri gəlmişkən, özünü təmin edən iqtisadiyyat qurduq. Ümumi daxili məhsula (ÜDM) nisbətdə xarici borcun səviyyəsi çox aşağıdır, cəmi 6,9 faizdir”.

Burada Azəbaycan Respublikasının dövlət kimi mövqeyi ilə iqtisadi inkişaf arasında münasibətlər ifadə edilmişdir. Birincisi, Prezident İlham Əliyev vurğulayır ki, müstəqil Azərbaycan öncədən dərin düşünülmüş konsepsiya əsasında davamlı, dayanıqlı və konkret strateji hədəfləri olan mövqe müəyyən etmişdir və ondan zərrə qədər də kənara çıxmamışdır. Bu səviyyədə Azərbaycan öncə “harada idisə, indi də oradadır”. Burada 1993-cü ildən başlayaraq Azərbaycanın güclü iqtisadiyyat qurmaq istiqamətində fəaliyyətinin böyük təsiri olduğunu da dövlət başçısı ifadə etmişdir. Məsələnin bu tərəfi müasir mərhələdə müstəqil dövlətçilik baxımından çox əhəmiyyətlidir.

Təcrübə göstərir ki, istənilən halda güclü iqtisadiyyatı olmayan ölkə nə daxili birliyini təmin edə bilir, nə də milli maraqlara uyğun stabil mövqe tutur. Belə nəticə çıxır ki, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi güclü dövlət quruculuğu konsepti çərçivəsində güclü iqtisadiyyat yaratmaq xətti Azərbaycanın müstəqil dövlət kimi regionda və qlobal miqyasda yerini müəyyən etmişdir. Azərbaycan özünü təmin edən və dinamik inkişafda olan iqtisadi sistem qura bilmişdir. Bu əsasda dövlətin mövqeyi tam stabilləşmişdir.

Dövlətin mövqeyinin tam sabitləşməsinin bir sıra müsbət nəticələri olur. Onları müsahibədə İlham Əliyev göstərmişdir. Bu zaman Azərbaycan rəhbərinin çox maraqlı nəzəri və siyasi keçid etdiyini görürük.

İlham Əliyev cəmiyyətdə sabitlik və birliyin təminini dövlət maraqlarının müdafiə edilməsinin başlıca şərtləri kimi göstərir. Yəni daxili sabitlik, sakitlik, sosial-siyasi, mənəvi-mədəni, ideoloji birlik olmadan dayanıqlı surətdə dövlət maraqlarını müdafiə etmək mümkün olmur. Bu, müstəqil dövlət quruculuğunun müasir dönəmdə çox mühüm şərtidir.

### Daxili birliyin regional miqyasa proyeksiyası

İndi nəzəri və politoloji olaraq hər kəs deyə bilir ki, “daxili birliyi regional miqyasa proyeksiya etmək mümkündür”. Lakin müstəqil dövlətlərin son illərdə topladıqları təcrübə göstərir ki, praktiki müstəvidə buna nail olmaq ciddi məsələdir. O, çoxlu sayda çətinliklər və həlli zəruri olan problemləri aradan qaldırmağı tələb edir. Cənubi Qafqaz dövlətlərinin nümunəsində bu tezisin doğruluğuna əmin olmaq mümkündür.

Ermənistan keçən əsrin 90-cı illərində hesab edirdi ki, daxili birliyin pik səviyyəsindədir. Oradakı siyasi dairələr vahid erməni ideyası ətrafında toplumu əbədi birləşdirdiklərini və sabitliyə nail olduqlarını düşünürdülər. İnanırdılar ki, daxili birliyin bu cür anlamını regional miqyasa “erməni cəmiyyətinin birliyi modeli” kimi uğurla proyeksiya edə biləcəklər. Buna görə də Azərbaycanın torpaqlarını işğal etməyi özlərinə maneə kimi deyil, əlavə stimulverici faktor kimi təsəvvür edirdilər. Reallıq isə tamamilə bunun əksini ermənilərə və dünyaya sübut etdi.

Aydın oldu ki, şovinizmə, aqressiyaya, başqalarına nifrətə və ultraradikal müstəsnalığa əsaslanan birlik ilğımdır və kənardan olan ədalətli təsir onu qısa müddətdə darmadağın edir. Bu cür birliyi regional miqyasa proyeksiya etmək nəinki müsbət nəticə vermir, hətta böyük fəlakətlərə yol açır. Cəmi 44 günə Azərbaycan bunu ilk olaraq ermənilərə və bununla yanaşı, onların havadarlarına təkbaşına sübut etdi.

Deməli, daxili birliyin regional miqyasa uğurlu proyeksiyası kifayət qədər çətin məsələdir və burada çoxlu sayda faktorlar ciddi rol oynayırlar. İndi Ermənistan həm daxildə parçalanma dövrünü yaşayır, həm də müstəqil dövlət kimi regional proseslərdə yox dərəcəsindədir. Rəsmi İrəvan yenə də tərəddüdlü axtarışlarını davam etdirir. Nə qədər ki, daxili birlik və sabitliyin sivil formasını tapa bilməmişlər, real olaraq iqtisadiyyatlarını inkişaf etdirmək modelini yaratmamışlar. Onların hər hansı uğuru mümkün deyildir. Bu baxımdan silahlanma Ermənistanı dövlət və cəmiyyət kimi növbəti və daha dərin uçuruma aparır.

Biz Gürcüstan və Ukrayna nümunələrini də müqayisə edə bilərik. Ancaq təkcə Ermənistan misalı göstərir ki, müasir mərhələdə müstəqil dövlətin daxili sosial-siyasi, mədəni, mənəvi və ideoloji birlik modelini regional miqyasa uğurlu proyeksiya etməsi yaradıcı prosesdir. Bu məsələ, liderin uzaqgörənliyi ilə qətiyyəti, düzgün strategiya müəyyən etməsi və digər keyfiyyətlərin mükəmməl vəhdətini tələb edir. İlham Əliyevin Çin telekanalına müsahibəsində həmin problemi yığcam ifadə etməsi onu gösərir ki, Azərbaycanın lideri yüksək siyasi-diplomatik və idarəetmə məharətinə sahibdir!

Azərbaycan Prezidenti vurğulanan dövlət quruculuğu problemlərindən bəhs edərkən verdiyi izah son dərəcə əhəmiyyətli məqamları üzə çıxarır. İlham Əliyev müsahibədə vurğulamışdır: “Buna əsaslanaraq biz regionda bağlantılar yaradan genişmiqyaslı layihələr həyata keçirmişik və aid olduğumuz Cənubi Qafqaz və Xəzər regionunda etibarlı mövqe tutmuşuq. Əlbəttə ki, milli maraqlarımızı, həyat tərzimizi və müstəqil siyasətimizi qəti şəkildə müdafiə etmişik və çoxlu uğur qazanmışıq”.

### Milli maraqlar, həyat tərzi və müstəqil siyasət

Prezidentin müsahibədə dediyi fikirlərdən sonuncu cümlə dövlət başçısının anlayışları politoloji kontekstdə çox maraqlı və aktual konseptuallaşdırdığını göstərir. İlham Əliyev milli maraqları, həyat tərzini və müstəqil siyasəti vahid siyasi məntiqdə birləşdirərək onun, birincisi, genişmiqyaslı layihələr həyata keçirməyə imkan yaratdığını, ikincisi, həmin imkanın yekunda regional bağlantıları formalaşdırdığını, üçüncüsü, bu prosesin Cənubi Qafqaz və Xəzər regionunda etibarlı mövqe tutmağı təmin etdiyini bildirmişdir.

Burada bir qədər nəzəri-politoloji və fəlsəfi haşiyə çıxmağa ehtiyac görürük. Çünki müasir dönəmdə vurğulanan anlayışları politoloji müstəvidə yaradıcı konseptuallaşdırmaq mühüm bir hadisədir. Burada bir tərəfdən milli maraqlar, həyat tərzi və müstəqil siyasət kimi anlayışları bir siyasi məntiq işığında təhlil etmək, digər tərəfdən isə onların praktikada əhəmiyyətli layihələri reallaşdırmağa verdiyi təkanları dərk etmək və eyni zamanda, bütün bunların regional bağlantıları keyfiyyətcə yeni səviyyəyə yüksəldərək geniş regional miqyasda (Cənubi Qafqaz+Xəzər regionu) Azərbaycan dövlətini etibarlı mövqe tutan dövlət kimi identifikasiya etməyə zəmin yaratdığını əsaslandırma vardır.

Bütün bunları bir qədər də ümumiləşdirib yığcam ifadə etsək, aşağıdakı fəaliyyət şəbəkəsini alırıq: daxili sosial-siyasi və mənəvi-mədəni vəziyyətdən (milli maraqlar və həyat tərzi) siyasi-diplomatik mexanizmlə (müstəqil siyasi kurs) real layihələr həyata keçirərək regional əlaqələrə yeni məzmun verməyə (layihələrin regional təsiri əsasında əlaqələri inkişaf etdirmək üsulu) və oradan da Cənubi Qafqaz+Xəzər regionunda dövlətin etibarlı imicini yaratmağa nail olmaq.

Bu cür çoxkomponentli siyasi fəaliyyətin Cənubi Qafqaz təcrübəsi kimi politoloji təhlili geniş aparılmalıdır. Konkret olaraq, Azərbaycan milli maraqlar, milli ideya, fayda verən layihələri həyata keçirmək və regional əlaqələrə yeni məzmun verməklə geniş bir geosiyasi məkanda müstəqil dövlətin etibarlı tərəfdaş kimi identifikasiya edilə bilməsinin mümkünlüyünü sübut etmişdir.

Əlbəttə, bu mövzu özlüyündə mürəkkəb nəzəri-konseptual məzmun daşıyan məsələdir. Onun fəlsəfi və politoloji ümumiləşdirmələri xüsusi araşdırmalar tələb edir. Lakin Prezident İlham Əliyevin bir müsahibədə bu dərəcədə zəngin və strateji mənası olan tezislər irəli sürməsi ayrıca bir hadisədir. Bunun fonunda dövlət başçısının müsahibədə ifadə etdiyi ümumi bir tezisinin politoloji dərki də çox aktual görünür. İlham Əliyev yuxarıda vurğulanan faktorlar kontekstində belə bir ümumiləşdirmə aparmışdır: dünya xəritəsində nisbətən yeni olan Azərbaycan öz milli maraqlarını müdafiə edən və bütün dünyada yaxşı əlaqələr quran ölkə kimi nümunədir!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# “Böyük manipulyator”

*(əvvəli 1-ci səhifədə)*

Bunlar nə tez Makronun yadından çıxdı? Makron nə tez unutdu ki, 2015-ci ilin payızından başlayaraq Jan-Pier Juyet hamıdan gizlin, tez-tez onun yanına – İqtisadiyyat Nazirliyinə gəlib gənc nazirin gələcək siyasi arzularını dəstəkləyir, ona dəyərli məsləhətlər verirdi? 2016-cı ilin dekabr ayında Fransua Holland yenidən prezidentliyə namizədliyindən imtina edəndən sonra Jan-Pier Juyet həyat yoldaşı Bricit Tettinjer ilə birlikdə Emmanuel Makronun Tuket şəhərindəki evinə gəlib onlarda qonaq qalmamışdımı? Daha sonra o, öz cibindən xeyli pul verib Makronun yaratdığı “Hərəkətdə!” hərəkatına maliyyə dəstəyi olmamışdımı? Hələ öz yaxın dostlarına, ailə üzvlərinə, qohumlarına da tapşırmışdı ki, Makronun siyasi hərəkatına onun kimi şəxsi büdcələrindən maliyyə dəstəyi versinlər... Necə oldu ki, Emmanuel ona arxa olan, ona çətin günlərində kömək əli uzadan belə bir adamı sonra saymadı? Prezident olandan sonra onun Jan-Pier Juyetin zənglərinə, mesajlarına, elektron məktublarına cavab verməməsinə necə haqq qazandırmaq olar? Bəlkə, Makron Fransua Hollandı xatırladan hər şeyin üstündən birdəfəlik xətt çəkmək istəyir? Seçkidən sonrakı aylarda da Makrondan xəbər çıxmır. Jan-Pier Juyet onun bu sükutundan narahat olsa da, “Makron təzə seçilmiş prezidentdir, çox güman ki, başı çox qarışıqdır”, – deyə özözünə təsəlli verir. Sonra bu geniş ürək sahibi dostlarına qohumlarına şikayət etməyə başlayır. Jan-Pier Juyetin Makrona göndərdiyi SMS mesajlarının, e-maillərin sayı getdikcə artsa da, gənc prezidentdən xəbər çıxmır. Ata kimi sevdiyi bir adamın bu biganəliyi, qoca Jan-Pierin çox xətrinə dəyir. Makronun saymamazlığı onu bərk incitsə də, hələ də ümid edir, hələ də inanır ki, prezidentin başı bir az işdən ayrılandan sonra ona cavab verəcək. Ancaq aylar keçir, Makrondan səs çıxmır. Axırda Jan-Pier Juyet məcbur olub Yelisey sarayının baş katibi Aleksi Kohlerlə əlaqə saxlamağa çalışır. Lakin Aleksi Kohler də nə onun SMS mesajlarına, nə də elektron məktublarına cavab verir. Halbuki prezidentdən sonra dövlətin ikinci ən vacib adamı olan bu məmur Makronla belə yaxın olmağında, onun sağ əlinə çevrilməyində ancaq və ancaq Jan-Pier Juyetə borcludur. Çünki 2014-cü ilin avqustunda Jan-Pier Yelisey sarayının baş katibi olanda, yeni iqtisadiyyat naziri Emmanuel Makrona məhz o, məsləhət görmüşdü ki, Aleksi Kohleri özünə kabinet direktoru götürsün... Görünür, Aleksi Kohlerin də yaddaşı Makronunku kimi zəifdir.

2018-ci il yanvar ayının 18-də Londonda təşkil olunacaq Fransa–Britaniya sammitini hazırlamaq üçün Yelisey sarayına gələn Fransanın İngiltərədəki səfiri Jan-Pier Juyet, bu fürsətdən istifadə edib, Makronun ona qarşı bu soyuq münasibətini anlamağa çalışır. Həmin gün Respublika Prezidenti rəsmi olaraq Fransanın İngiltərədəki səfirini öz kabinetində qəbul edir. “Hə, necədir sənin yeni vəzifən? Xoşuna gəlirmi?”, – deyə dövlət başçısı riyakar təbəssümlə ona sual verir. Səfir Jan-Pier Juyet onun bu sualına müsbət cavab verəndən sonra söhbəti dəyişir: “Bir dəqiqə Emmanuel... mən sənə o qədər SMS, e-mail göndərmişəm... Ancaq sən heç birisinə cavab vermədin. Mən başa düşmürəm...”. Makron onun sözünü kəsir: “Nə SMS? Nə e-mail? Mən heç nə almamışam...”. Juyet sözünə davam edir: “Mən eyni e-mailləri Aleksi Kohlerə göndərmişəm...”. Elə bu vaxt Yelisey sarayının Baş katibi otağa daxil olur. Makron onu özünə şahid çəkir: “Aleksi, heç bilirsən, Jan mənə nə dedi? Deyir ki, bəs mən sizə SMS mesajları, xeyli e-mail göndərmişəm, ancaq siz cavab verməmisiniz... Bu nə deməkdir? Axı biz heç nə almamışıq... elə deyil? Nə SMS, nə də e-mail...”. Yelisey sarayının Baş katibi də prezidentin dediklərini təsdiqləyir. Bu sözlərdən sonra Juyet onlara inanmağa hazırdır: “Hə, başa düşdüm... indi ürəyim sakit oldu. Mən də elə bilirdim ki, siz daha mənimlə danışmaq istəmirsiniz...”.

Ancaq Brijit Makron Jan-Pier Juyetin həyat yoldaşı Brijit Tettinjer ilə dostluğunu saxlayıb. Onlar mütəmadi olaraq telefonla danışır, bir-birindən hal-əhval tuturlar. Brijit Makronun rəfiqəsinin həyat yoldaşına – ərinin keçmiş himayədarına – qarşı diqqətsizliyindən, saymazlığından çox gözəl xəbəri var və onun bu hərəkətini tez-tez məzəmmət edir. Brijit hesab edir ki, ərinin Jan-Pier Juyetə qarşı belə açıq-aşkar saymazlıq etməsi, özünü bu qədər təkəbbürlü aparması ona zərər




verə bilər... Ancaq bu mövzuda Emmanuel Makron arvadına qulaq asmır.

### “Yalançı” Attali

Jan-Pier Juyet Makronu seçki kampaniyası zamanı dəstəkləyən, ona maddi və mənəvi kömək göstərən, onun qələbəsindən sonra isə unudulan adamların uzun siyahısında yalnız birincidir. Başqa bir ağır çəkili siyasətçi – İqtisadiyyat Nazirliyinə tez-tez gəlib Makrona dəyərli məsləhətlər verən, FMİ-in (Beynəlxalq Valyuta Fondu) keçmiş rəhbəri, Dominik Stros-Kan da prezidentin istifadə edib, sonra unutduğu adamlardandır. Makron, seçki kampaniyası zamanı ondan, xüsusilə onun şəbəkələrindən yaxşıca istifadə etdi. Ancaq prezident seçiləndən sonra onu yaddaşından sildi. Düz 2017-ci ilin may ayından bəri Dominik Stros-Kan nə Makronu görüb, nə də onunla telefonla danışıb.

Başqa bir şəxsiyyətin də Emmanuel Makronun prezident seçilməsində böyük köməyi olub, ancaq onun da yeni prezidentdən o qədər də xəbəri yoxdur: Jak Attali. Onu da etiraf etmək lazımdır ki, bu adamların ikisinin də yüksək dərəcəli eqoları var – ikisi də bir-birinin tayıdır, ikisi də necə deyərlər, “nə yardan doyur, nə əldən qoyur”. Məsələ burasındadır ki, Fransua Mitteranın keçmiş müşaviri Attali, həmişə üzdə, diqqət mərkəzində olmaq istəyir. Ancaq bu sahədə o, Makrona çata bilməz, Makron özünü gözə soxmaqda çox mahirdir. Sarkozinin vaxtında 2007- ci ildə Jak Attalinin başçılıq etdiyi və onun adını daşıyan “Attali komissiyası”nın üzvü olanda, Makron təbəssümü, danışıq tərzi və ideyaları ilə bütün komissiya üzvlərinin simpatiyasını qazanmışdı. “Onun rolu ancaq yazmaq idi”, – deyə Attali bir neçə ildən sonra, Makronun onun komissiyasındakı işini tərifləyənlərə quru-quru cavab verir. Bundan sonra, onların arası tədricən sərinləməyə başlayır və nəhayət, 2015-ci ilin yayında münasibətləri tamamilə pozulur. Ona görə də Jak Attali qərara gəlir ki, prezident seçkilərində Makronu yox, Manuel Vallsı dəstəkləsin. Makron bunu eşidəndə ironiya ilə gülür. İqtisadiyyat naziri olanda, müsahibələrinin birində bütün Fransa mətbuatının onun müəllimi və vaxtilə onu qanadının altına alan bir adam kimi təqdim etdiyi Jak Attali haqqında, Makron bu sözləri deyir “O yalançıdır!”. Düzdür, Makron prezident seçiləndən sonra Attali onunla barışmağa can atacaq və bu məqsədlə ona cəmiyyətdəki bərabərsizlikləri üzə çıxarmaq üçün yeni komissiya yaratmaq təklif edəcək... Lakin Yelisey sarayı ona daha heç bir missiya tapşırmayacaq.

Beləliklə, heç bir xəbərdarlıq etmədən, gənc prezident Emmanuel Makron, bütün enerjisini ona sərf edən adamla birdən-birə bütün əlaqələrinə son qoyur. Ən çox zəif adamların at oynatdığı sosial şəbəkələr dövründə hər şey mümkündür və heç nə ayıb deyil. Ona görə də belə bir nankor dövrdə Makron möcüzələr yaradır. O özünü sevdirir, onu sevənlərdən bol-bol istifadə edir, sonra da onları lazımsız bir şey kimi kənara atır. Özü də heç bir vicdan əzabı çəkmədən. Təbii ki, qoca Jan-Pier, Makronun ona qarşı bu soyuq münasibətinin, onunla əlaqələrinin birdən-birə kəsməyinin səbəblərini başa düşmür. 2012-ci ildə Emmanuel Makronun Yelisey sarayının Baş katibinin müavini təyin olunmasını məhz Jan-Pier Juyet prezident Hollanddan xahiş etmişdi. İki il sonra 2014-cü ilin avqust ayında Makronun iqtisadiyyat naziri təyin edilməsini də prezidentə Jan-Pier Juyet təklif etmişdi.

**(ardı var)**

# “Şahdəniz” – Azərbaycanın “mavi” xəzinəsi

*(əvvəli 1-ci səhifədə)*

İl ərzində qazın “Şahdəniz” yatağından Azərbaycan, Gürcüstan və Türkiyə bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə, eləcə də Avropadakı alıcılara çatdırılması davam etdirilib. Zəngin qaz və kondensat ehtiyatlarına görə seçilən “Şahdəniz” yatağında ötən müddətdə iki hasilat platforması quraşdırılaraq istismara verilib. Həmin qurğuların gündəlik hasilat gücü, təxminən, 79 milyon (ildə 29 milyard kubmetrdən artıq) kubmetr təşkil edir. Ötən il “Şahdəniz-Alfa” və “Şahdəniz-Bravo” adlı platformalardan, təqribən, 28 milyard kubmetr qaz və 4 milyon tondan artıq kondensat çıxarılıb.

Məlum olduğu kimi, layihə səhmdarları tərəfindən “Şahdəniz” yatağının bir neçə mərhələdə işlənməsi ilə bağlı qərar qəbul olunub. Yatağın birinci işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2003-cü ilin əvvəllərində, ilk qazın hasilatına isə 2006-cı ilin sonlarında başlanılıb. Yatağın ikinci işlənmə mərhələsi isə genişliyi və əhatəliliyi baxımından daha çox seçilir. İl ərzində əlavə olaraq daha 16 milyard kubmetr qaz hasilatını nəzərdə tutan bu mərhələ çərçivəsində nəzərdə tutulmuş tədbirlər uğurla həyata keçirilir. Hazırda “Şahdəniz-2” layihəsi çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində yatağın sualtı işlənməsi texnologiyası tətbiq olunur ki, bu da BP şirkətinin dünya üzrə operatoru olduğu ən iri sualtı infrasrukturdur. Təxminən 28 milyard ABŞ dolları həcmində investisiya qoyulmuş bu layihə, ümumilikdə, planlaşdırılmış ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilmiş iki platformadan, 500 kilometr uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Səngəçal terminalında əsaslı genişləndirmə işlərindən ibarətdir. Layihənin detallarına, həmçinin Azərbaycan ərazisində 428 kilometr, Gürcüstan ərazisində isə 59 kilometr uzunluğunda yeni boru kəmərləri və iki yeni kompressor stansiyası, eləcə də Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsi daxildir.



“Şahdəniz” yatağının ikinci işlənmə mərhələsində qaz hasilatına 2018-ci il iyul ayının 30-da başlanılıb. Həmin gün yatağın şimal cinahındakı “SDC03Z” quyusunun istismara verilməsi ilə “Şahdəniz Bravo” platformasından ilk qaz əldə olunub. Sonrakı illərdə yeni quyuların istismara daxil edilməsi ilə hasilat artmağa başlayıb. 2022-ci ildə “Şahdəniz-2” layihəsi çərçivəsində daha bir uğura imza atan konsorsium iştirakçıları yatağın qərb-cənub cinahını işlənməyə daxil ediblər. Ötən ilin dördüncü rübündə “Şahdəniz-2” layihəsi çərçivəsində yatağın şərq-şimal cinahından 3-cü quyu işə salınıb. Bununla yanaşı, yatağın qərb-cənub cinahında sualtı işlər üzrə fəaliyyətlər davam etdirilib.

İl ərzində “Xankəndi” sualtı tikinti gəmisi ilə hazırda istismarda olan bütün “Şahdəniz-2” və AÇG sualtı hasilat obyektlərinə texniki xidmət, yoxlama və müdaxilə ilə bağlı ümumi işlərə dəstək verilməsi davam etdirilib. Regionda tətbiq edilən vahid gəmi strategiyasına uyğun olaraq “Xankəndi” dənizdəki bütün tikinti, quraşdırma, müayinə, təmir və texniki xidmət işləri, eləcə də fövqəladə hallara cavab tədbirləri üçün əsas su nəqliyyatı kimi istifadə olunur. Bu da BP və tərəfdaşlarının Xəzərin Azərbaycan sektorundakı dəniz əməliyyatlarının daha təhlükəsiz və daha səmərəli olmasına xidmət edir.

Hazırda “Şahdəniz-2” layihəsi çərçivəsində görülən işlər “Xənkəndi” gəmisinin əsas iş həcmi olmaqda davam edir. Burada əsas diqqət layihə üzrə qalan quyuların təhvil verilməsinə yönəlib. Gəmidən və qazma qurğularından səmərəli istifadəni təmin etmək məqsədilə fəaliyyətlərin optimallaşdırılması və quyuların işə salınması müddətinin sürətləndirilməsi üçün inteqrasiya olunmuş qrafik hazırlanıb.

Hesabatda qeyd olunduğu kimi, ötən il “Şahdəniz Alfa” platformasından quyu qazılmayıb. Bu müddət ərzində platformanın qazma qurğusunda profilaktik işlər aparılıb. Bununla yanaşı, “Şahdəniz-2” layihəsi çərçivəsində quyular üzrə işlər davam etdirilib. Dördüncü rüb ərzində yatağın qərb-cənub və qərb cinahlarında “İstiqlal” və “Heydər Əliyev” qazma qurğuları vasitəsilə müvafiq olaraq “SDF02”, və “SDD05” quyusunda qazma işləri həyata keçirilib. Ümumilikdə, ötən müddətdə “Şahdəniz-2” layihəsi çərçivəsində 21 quyu qazılıb. Həmin quyuların 5-i yatağın şimal cinahında, 4-ü qərb cinahında, 4-ü şərq-cənub cinahında, 5-i qərb-cənub cinahında, 3-ü isə şərq-şimal cinahında yerləşir.

“Şahdəniz” yatağından hasil edilən qaz saultı infrastruktur vasitəsilə Səngəçal terminalına nəql olunur. Buradakı mövcud qurğular qazı qəbul edərək Cənubi Qafqaz boru kəmərinə ötürür. 2024-cü ildə “Şahdəniz” qazının, eləcə də “Azəri–Çıraq–Günəşli” yataqlar blokundan neftlə bərabər çıxarılan səmt qazının sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam edib. Terminalın texniki emal sistemlərinin gündəlik gücü hazırda, təqribən, 81 milyon kubmetrdir. Ümumi qaz emalı və ixracı gücü isə (AÇG səmt qazı da daxil olmaqla) gündəlik 100 milyon standart kubmetr təşkil edir. Qaz Səngəçal terminalından Cənubi Qafqaz boru kəməri və terminalın qaz emalı obyektlərini SOCAR-ın “Azəriqaz” İstehsalat Birliyininın qazpaylama sistemi ilə birləşdirən Azərbaycana məxsus qaz kəməri ilə ixrac olunur. Ötən il buradan gün ərzində orta hesabla, təxminən, 76 milyon kubmetr “Şahdəniz” qazı göndərilib.

## Pəncabda ölkəmizin Ticarət evi açılıb

**Azərbaycanın Pakistanın şimal-şərq əyaləti olan Pəncabda Ticarət evi fəaliyyətə başlayıb. Açılış mərasimində əyalətin maliyyə naziri Mian Muctaba Şuca-ur-Rəhman iştirak edib.**



Nazir belə bir təşəbbüsün gerçəkləşməsini Azərbaycan və Pakistan arasında ikitərəfli ticarət və mədəni əlaqələri gücləndirə biləcək əlamətdar hadisə adlandırıb. M.Rəhmanın sözlərinə görə, Ticarət evi hər iki ölkənin sahibkarlarına işgüzar əlaqələri genişləndirmək, ticarət həcmini artırmaq və uzunmüddətli iqtisadi tərəfdaşlıq qurmaq imkanı verərək investisiya və biznes üçün yeni imkanlar yaradacaq.

Əyalət rəsmisi Azərbaycan investorlarını Pəncab bazarının perspektivlərini araşdırmağa çağırıb və toxuculuq sənayesi, kənd təsərrüfatı, informasiya texnologiyaları və energetika kimi sektorlarda əhəmiyyətli potensialın olduğunu qeyd edib. Maliyyə naziri vurğulayıb ki, iqtisadi inkişaf artıq sadəcə ticarət həcminin artırılması ilə məhdudlaşmır, texnologiyalar, insan kapitalının inkişafı və innovasiyaların dəstəklənməsi mühüm rol oynayır.

M.Rəhman, eyni zamanda, Azərbaycan Ticarət evinin iqtisadi əməkdaşlıq üçün mühüm platforma olacağına və iki ölkə arasında dostluğun daha da möhkəmlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib. Maliyyə naziri ölkəsinin respublikamızla ticari, investisiya və mədəni əlaqələrin inkişafına sadiq olduğunu da diqqətə çatdırıb.

## SOCAR və AİB arasında emissiyaların azaldılması nəzərdən keçirilib

**Dövlət Neft Şirkətinin prezidenti Rövşən Nəcəf Asiya İnkişaf Bankının (AİB) Azərbaycan üzrə ölkə direktoru Sunniya Durrani-Camal ilə görüşüb. Bu barədə socar.az saytı məlumat yayıb.**



Bildirilib ki, görüşdə SOCAR ilə AİB arasında mövcud və potensial əməkdaşlıq imkanları nəzərdən keçirilib. Söhbət zamanı enerji sektorunda davamlı inkişafın təmin edilməsi və bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində birgə layihələrin həyata keçirilməsinə dair məsələlər müzakirə edilib.

SOCAR prezidenti rəhbərlik etdiyi qurumun dekarbonizasiya hədəfləri, dayanıqlı inkişaf məqsədlərinə uyğun olaraq həyata keçirilən layihələr barədə məlumat verilib. Tərəflər bərpaolunan enerji layihələrinin inkişafı, karbon emissiyalarının azaldılması istiqamətlərində əlaqələrin genişləndirilməsi, enerji sektorunda davamlı inkişafı təmin olunması məqsədilə təcrübə mübadilələrinin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparıblar.

## Ötən il dövlət borcu ÜDM-in 21,7 faizini təşkil edib

**Bu il yanvarın 1-nə ölkəmizin dövlət borcu (daxili və xarici dövlət borcu) 27 milyard 380 milyon manat və ya 2024-cü il üzrə 126 milyard 337 milyon manat məbləğində olan Ümumi Daxili Məhsulun (ÜDM) 21,7 faizini təşkil edib. Ümumi dövlət borcunun 8 milyard 720,5 milyon manatı (5 milyard 129,7 milyon dollar) və ya 31,8 faizi xarici dövlət borcunun, 18 milyard 659,7 milyon manatı və ya 68,2 faizi daxili dövlət borcunun payına düşür.**

Maliyyə Nazirliyinin məlumatına görə, yanvarın 1-nə xarici dövlət borcu 5 milyard 129,7 milyon dollar və ya 2024-cü il üzrə 126 milyard 337 milyon manat (74 milyard 315,9 milyon dollar) məbləğində olan ÜDM-in 6,9 faizini təşkil edib. Xarici dövlət borcu xarici valyuta məzənnələrində baş vermiş dəyişikliklər nəzərə alınmaqla 2024-cü ilin əvvəli ilə müqayisədə mütləq ifadədə 1 milyard 331,5 milyon dollar və ya 20,6 faiz azalıb. 2024-cü il ərzində kredit sazişləri çərçivəsində istifadə olunan vəsait müqabilində 1 milyard 376 milyon dollar məbləğində vaxtı çatmış əsas borc ödənişlərinin, o cümlədən beynəlxalq maliyyə bazarlarında 2014-cü ildə yerləşdirilmiş istiqrazlar (avrobondlar) üzrə 900 milyon dollar məbləğində ödənişlərin həyata keçirilməsi xarici dövlət borcunun azalmasını şərtləndirib.



Ümumilikdə, 2025-ci il yanvarın 1-nə xarici dövlət borcunun ÜDM-ə nisbəti 2024-cü ilin əvvəli ilə müqayisədə 2 faiz bəndi azalıb.

## Azərbaycanın qeyri-neft ixracı artıb



**2025-ci ilin yanvar ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 10,7 faiz artaraq 245,8 milyon ABŞ dolları təşkil edib. Bu barədə XQ-yə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən məlumat verilib.**

Bildirilib ki, cari ilin yanvar ayında yeyinti məhsullarının ixracı 19,7 faiz artaraq 84,2 milyon dollara bərabər olub. Hesabat dövründə aqrar və aqrar-sənaye mallarının ixrac dəyəri müvafiq olaraq 10,4 faiz artaraq 64,8 milyon dollar və 44,3 faiz artaraq 22,2 milyon dollara çatıb. Bütövlükdə isə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 17,5 faiz çoxalaraq 87,1 milyon dollar təşkil edib.

Bu ilin birinci ayında qara metallar və ondan hazırlanan məmulatların ixracı 2,8 dəfə, şəkər və şəkərdən hazırlanan qənnadı məhsullarının ixracı 34,9 faiz, alkoqollu və alkoqolsuz içkilərin ixracı 39,2 faiz, üzvi kimyəvi birləşmələrin ixracı isə 52,4 faiz artıb.

## Yanvarda bahalaşma və ucuzlaşma

**Dövlət Statistika Komitəsindən aldığımız məlumata əsasən, bu ilin yanvar ayında inflyasiya 2024-cü ilin eyni dövrü ilə müqayisədə 5,4 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 5 faiz, qeyri-qida məhsulları üzrə 2,6 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 8,4 faiz təşkil edib.**



Bildirilib ki, yanvarda qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri əvvəlki aya nisbətən 0,6 faiz artıb. Bu göstərici qeyri-qida malları üzrə 0,3 faiz təşkil edib. Qeyri-qida məhsullarından bahalaşma kərpicin, sulu boyaların, pambıq parçaların, çilçıraqların, zərgərlik məmulatlarının, ucuzlaşma isə kəsilmiş taxtaların, laminat parketlərin, yazı kağızlarının qiymətlərində müşahidə olunub. Digər qeyri-qida mallarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

Hesabat dövründə əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətləri dekabr ayına nisbətən 2 faiz artıb. Bahalaşma istilik, elektrik enerjisi, təbii qaz təchizatı və mənzillərin kirayə verilməsi xidmətlərinin, ucuzlaşma isə hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətlərində müşahidə olunub. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

## “Güləbird” SES-də 69,9 milyon kVt/saat elektrik enerjisi istehsal olunub

**Energetika Nazirliyi “Güləbird” su elektrik stansiyasında (SES) 4 ildə istehsal edilən elektrik enerjisinin həcmini açıqlayıb.**



Məlumatda qeyd edilir ki, işğaldan azad edilmiş Laçın rayonunda Həkəri çayının üzərində yerləşən “Güləbird” kiçik SES-də istismara verildiyi tarixdən bu ilin fevralın 1-dək 69,9 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib.

Bildirilir ki, ümumi gücü 8 meqavat olan basqılı derivasiya tipli stansiya 4 il əvvəl fevralın 14-ü yenidən bərpa olunaraq istifadəyə verilib. Digər kiçik su elektrik stansiyalarında olduğu kimi, burada da ekoloji cəhətdən təmiz elektrik enerjisi istehsal olunur və ətraf mühitə istixana effekti yaradan qazlar atılmır.

## Ölkəmizdə batareya enerji saxlanc sistemləri quraşdırılacaq

**“AzərEnerji” Açıq Səhmdar Cəmiyyəti ölkə ərazisində batareya enerji saxlanc sistemlərinin quraşdırılmasını planlaşdırır. Artıq qurum bununla bağlı hazırlıq işlərinə başlayıb. Layihənin, təxminən, 250 milyon manata başa gələcəyi gözlənilir.**



Qeyd edək ki, Energetika Nazirliyi batareya enerji saxlanc sistemlərinin yaradılması ilə bağlı qiymətləndirmə aparıb. Məlum olub ki, 2 qiqavat həcmində “yaşıl” enerjinin inteqrasiyası üçün Azərbaycana 250 meqavat gücündə saxlanc sistemi lazımdır.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Böyük Qayıdışa qardaşlıq töhfəsi

*(əvvəli 1-ci səhifədə)*

Qeyd edək ki, yüksək keyfiyyətli trikotaj məhsullar istehsal edən tikiş fabriki qardaş ölkə Özbəkistanla iqtisadi və investisiya əməkdaşlığının nəticəsi olaraq fəaliyyətə başlayıb. Azərbaycan və Özbəkistan prezidentləri 2024-cü il noyabrın 13-də videobağlantı vasitəsilə fabrikin açılış mərasimində iştirak ediblər. Ərazisi 1,2 hektar olan müəssisənin ümumi investisiya dəyəri 11 milyon manatdır.

### Hədəf böyükdür – Qarabağdan dünyaya!

Bizi qonaqpərvərliklə qarşılayan Günel xanım məlumat verdi ki, ilkin mərhələdə 250 işçinin çalışdığı müəssisədə üç rəngdə qısaqol köynəklər tikilir. Gündəlik istehsal gücü hələlik 1700-1800 ədəd təşkil edir. Növbəti mərhələlərdə işçi sayının 400-ə, daha sonra 800-ə, fabrik tam gücü ilə fəaliyyət göstərməyə başlayanda isə 1200-ə çatdırılması nəzərdə tutulub. Bu proses birinci və üçüncü mərtəbələrdə təmir işləri yekunlaşdıqdan və yeni avadanlıqlar gətirilib quraşdırıldıqdan sonra davam etdiriləcək. İşçilərin əksəriyyəti Xankəndi, Xocalı, Şuşa, Ağdam və sair işğaldan azad edilmiş şəhər və rayonlarımızın sakinləridir. Onlar müsabiqələr vasitəsilə seçilərək iki ay təlimlərə cəlb olunublar, daha sonra işə qəbul ediliblər. İşçilərin xeyli hissəsi müəssisə tərəfindən Xankəndində yaşayış yeri ilə təmin edilib, digər əməkdaşların yaxın rayonlara gediş-gəlişləri üçün isə 4 ədəd avtobus ayrılıb. Fabrikdə təmiz, səliqəli mətbəx və yeməkxana da fəaliyyət göstərir, işçilər burada pulsuz yeməklə təmin edilirlər.





İcraçı direktor onu da bildirdi ki, istehsal üçün həm yerli, həm də Özbəkistandan gətirilən xammaldan istifadə edilir. Artıq ölkə daxilində məhsul satışına başlanılıb. "Made in Azerbaijan" brendi ilə istehsal olunan qısaqol köynəklər 100 faiz pambıqdan hazırlandığı üçün yüksək keyfiyyətlidir. Odur ki, həmin məhsullara tələb kifayət qədərdir. Hazırda satışla bağlı sifarişlər qəbul olunur, müqavilələr bağlanır. Əsas hədəf isə xarici bazara çıxmaq, ixracyönümlü məhsul istehsal etməkdir. Bu istiqamətdə də danışıqlar davam edir. Gələcəkdə fabrikdə ildə 3-5 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal olunacaq, məhsulların 80 faizi ixrac ediləcək. Bir sözlə, hədəf "Made in Azerbaijan" brendini dünyada tanıtmaqdır.

### "Burada xəstələnmirəm..."

Müəssisədə işləyənlər arasında Özbəkistan vətəndaşları da var. Dilfuzə İbrahimova Qarabağa Daşkənd şəhərindən gəlib və fabrik işə başlayan gündən burada texnoloq kimi çalışır. Bizimlə söhbətində bildirdi ki, daha əvvəl Azərbaycanda olmayıb, ölkəmiz haqda məlumatı da çox geniş deyilmiş:

– Sadəcə bilirdim ki, Azərbaycan qardaş ölkədir, eyni millətik. Bu qədər. Ancaq Azərbaycana, Xankəndiyə gəldikdən sonra özümü burada qərib, yad hiss etmədim. Çünki insanlarımız da, adət-ənənələrimiz də, yeməklərimiz də, demək olar, eynidir. Dilimiz də bənzəyir, oxşardır. İş yoldaşlarımla tərcüməçisiz bir-birimizi başa düşürük. Xankəndini, Şuşanı gəzmək imkanım olub. Şuşa yaddaşımda gözəl, tarixi şəhər kimi iz buraxdı. Azərbaycanda ən çox sevdiyim isə bu ölkənin insanları və Qarabağın saf havasıdır. Sizə bir etiraf edim: Mən Daşkənddə olanda qışda tez-tez xəstələnirdim, qrip olurdum. Burada isə nəinki xəstələnmirəm, əksinə, özümü çox gümrah hiss edirəm.

D.İbrahimova texnoloq kimi öz təcrübələrini azərbaycanlı həmkarlarına öyrədir, tikiş, ütü, qablaşdırma da daxil bütün iş prosesinə nəzarət edir. Bəs görəsən, Dilfuzə xanım Özbəkistan üçün, oradakı ailəsi üçün darıxırmı? Sualımıza səmimi cavab verməsini xahiş etdik. Bildirdi ki, işinə olan sevgisi və bir də qardaş ölkədə olması onu darıxmağa qoymur:

– Mən 20 yaşımdan 14 ildir tekstil sənayesində çalışıram. Necə deyərlər, bu işə illərimi vermişəm. Ona görə də Daşkənddəki iş yerimdən Qarabağda işləmək təklifi gələndə tərəddüd etmədən razılaşdım. Yaxşı də ki, razılaşmışam. Çünki dostların əhatəsində sevdiyim işlə məşğulam. Ailəmdən ötrü darıxmağıma gəlincə, məni Xankəndidə yaşayış yeri ilə təmin ediblər. İnşallah, havalar isinən kimi anamı və övladımı da yanıma gətirəcəyəm.



### Xankəndidə işləmək xoşbəxtliyini yaşayanlar...

Fabrikin iş prosesi ilə tanışlıq zamanı həvəslə işləyən işçilərdən bir neçəsinin təəssüratlarını da öyrəndik.

**Nübar Əliyeva:**

– Bir ağdamlı kimi, azad Qarabağda işlədiyim üçün özümü son dərəcədə xoşbəxt hiss edirəm. Düzü, bir vaxtlar heç ağlıma da gəlməzdi ki, hər səhər Ağdamdan Xankəndiyə işə gələrəm. Tanrıya şükürlər olsun! Çox qürurluyam. Burada bizim üçün hər cür şərait yaradılıb. Pulsuz nəqliyyat və yeməklə təmin olunmuşuq. Bizim də borcumuzdur ki, yaxşı işləyək, fabrikimiz bütün dünyada tanınsın.

**Güldanə Quliyeva:**

–1992-ci ildə Xocalı faciəsi baş verən zaman erməni cəlladlarının qanlı qırğınlarından xilas olmağı bacaran xocalılılardan biri kimi bu gün yaşadığım hissləri sözlə ifadə etməkdə çətinlik çəkirəm. Əhd eləmişdim ki, nə vaxtsa "Qarabağ azad edilib, ora gedirsən" deyən olsa, evimi-eşiyimi qoyub birnəfəsə gedəcəm. Elə də etdim. Xankəndidə işləmək imkanı yarananda sevincimdən Goranboyda keçmiş məcburi köçkün kimi məskunlaşdığım evi qoyub bura gəldim. İndi azad yurdumda yaşadıqca elə bilirəm 33 il əvvələ qayıtmışam. Sanki aradakı zaman kəsiyi yoxa çıxıb, yaşadığımız ağrı-acılar bitib. İşğal dövründə qardaşımın qəbri Xocalıda qalmışdı, ziyarət edə bilmirdik. Ona görə Qarabağımız azad ediləndə anama gözaydınlığı verdim ki, şükür, daha oğlunun məzarını ziyarət edə biləcəksən. Gəlib gördük erməni vandalları qəbri dağıdıb, başdaşını sındırıblar. Allah ordumuzu hər zaman müzəffər etsin, qəhrəman oğullarımızın sayəsində qisasımız alındı, şəhidlərimizin ruhları dinclik tapdı. Allah əziz Prezidentimizi qorusun! Onun sayəsində bu xoşbəxt günləri yaşayırıq!

**Lalə Qarayeva:**

– Mən hələ sovet vaxtı Xankəndidə çox olmuşdum. Düzü, nə vaxtsa yenidən bura qayıdacağım ağlıma da gəlməzdi. Təkcə mən yox, bütün kollektivimiz çox şükür edirik ki, bu gün azad Qarabağımızda – Xankəndimizdəyik, bütün işğaldan azad edilmiş torpaqlarımıza qayıtmışıq. Buna görə hamımız sevinirik, qürur duyuruq. Allah şəhidlərimizə rəhmət eləsin, onların valideynlərinə, əzizlərinə səbir versin! Allah başda müzəffər Ali Baş Komandanımız olmaqla bütün ordumuzu qorusun!

**Hüseyn Hüseynov:**

– Əslən Xocalı rayonunun Kosalar kəndindənəm, Ağdamda doğulmuşam. Torpaqlarımız işğal olunanda yaşım çox deyildi. Uşaq kimi tərk etdiyim doğma Qarabağa valideyn, ailə başçısı kimi qayıtmışam. Özü də ailəlikcə bu fabrikdə işləyirik – özüm, həyat yoldaşım Aynurə və qızım Vüsalə. Bircə oğlum gəlməyib. O da hərbi xidmətdədir, Vətənə borcunu ödəyir. İnşallah, xidmətini bitirən kimi, oğlum da Xankəndiyə qayıdacaq. İndi təsəvvür edin ki, biz nə qədər xoşbəxtik! Bundan böyük səadət ola bilərmi?



Doğrudan da, Vətənini, torpağını, millətini sevən hər bir azərbaycanlı üçün azad Qarabağda, doğma Xankəndidə yaşamaqdan, işləməkdən böyük xoşbəxtlik ola bilər? Biz də fabrikin mehriban kollektivi ilə onların xoş təəssüratlarına, arzularına şərik olaraq sağollaşdıq. İşiniz avand olsun, məhsullarınızın sorağı dünyanın dörd bir yanından gəlsin, dostlar!

*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbiri*

Xankəndi

# Süni intellekt həm də təhlükə mənbəyidir

**Bu gün ən çox müzakirə edlən mövzulardan biri süni intellektdir. Bəzi mütəxəssislər süni zəkanın köməyi ilə böyük problemlərin həll olunacağına ümid bəsləyirlər. Ancaq digər alimlər süni zəka barədə o qədər də nikbin proqnozlar səsləndirmirlər. Təəssüf ki, son vaxtlar süni intellektdən dezinformasiya və saxta məlumatların yayılmasında geniş istifadə olunur. Bəs buna qarşı necə mübarizə aparmaq olar? Bu məsələ Qlobal Media Forumunda müzakirə olunub. Tədbir iştirakçıları bəzi qurumların süni intellektdən öz niyyətləri üçün süi-istifadə hallarının artdığını bildiriblər.**



Belə ki, İsveçrədə Ukraynada sülhə həsr olunmuş sammit ərəfəsində X sosial şəbəkəsinə 4 dildə saxta şərhlər yerləşdirilib. Maraqlıdır ki, bu şərhlərin müəllifləri kimi Cennifer Eniston, Luc Besson, Elton Con, Lionel Messi göstərilib. Hətta X sosial şəbəkəsi onların fotoları ilə dolub. Cəmi bir neçə saat ərzində sitatların sayı 120 mini keçib. Guya, Cennifer Eniston, Luc Besson, Elton Con, Lionel Messi kimi məşhurlar Ukraynaya yardımı dayandırmağa çağırıblar və Aİ-nin gələcəyi ilə bağlı pessimist proqnozlar veriblər. Yazılar 500 mindən çox baxış toplayıb. "Bot Blocker" layihəsinə görə, dezinformasiya Rusiya hökumətinə bağlı olan "Dvonik" adlı bot şəbəkəsi tərəfindən yayılıb. Tədqiqatçılar qeyd ediblər ki, 6 ay ərzində botlar Avropa Parlamentinə son seçkilər ərəfəsi də daxil olmaqla ən azı 6 dezinformasiya dalğası həyata keçiriblər.

Auditoriyanın hansı hissəsinin bu cür "sitatları" real qəbul etdiyini müəyyən etmək çətindir, lakin onların sayı az deyil. İnternet istifadəçiləri arasında aldıqları məlumatlara şübhə ilə yanaşma vərdişi də formalaşır. Bu fikri Avropa Parlamentində kommunikasiya şəbəkələri, məzmun və texnologiya üzrə məsul şəxs Renate Nikolay bildirib. "Beş il əvvəlki vəziyyətə baxsanız və onu Avropa Parlamenti seçkiləri ilə müqayisə etsəniz, insanlar indi dezinformasiya imkanlarından daha çox xəbərdar olurlar", – o, deyib. Nikolay məşhur sosial şəbəkələrdə istifadə edilən xəbərdarlıq sisteminin saxtakarlıqları üzə etməyə kömək etdiyini bildirib.

Xatırladaq ki, 2024-cü ildə Aİ-də bütün internet istifadəçilərini qeyri-qanuni məzmun, mal və xidmətlərdən qorumaq üçün Rəqəmsal Xidmətlər Aktı (DSA) qüvvəyə minib. Onun sayəsində nifrət, aqressiya təbliğ edən və ya dezinformasiya yayan yazılar dərhal silinir. Bununla yanaşı, Aİ rəsmisi hesab edir ki, Avropa hakimiyyəti Rusiya auditoriyası ilə əlaqə saxlamaq üçün səy göstərməlidir: "Biz təkcə öz əhalimizin deyil, Rusiya kimi ölkələrdə də media azadlığına çıxışı qorumalıyıq". O etiraf edib ki, bu, getdikcə çətinləşir, çünki Rusiya hakimiyyəti interneti bloklamaq və təcrid etmək üçün getdikcə müxtəlif texnologiyalardan istifadə edir.

Süni intellekt texnologiyalarından həm də təbliğat və qarayaxma məqsədləri üçün də istifadə edilir. 2020-ci ildə Almaniyanın xarici işlər naziri Annalena Berbok belə hücumların birinin qurbanı olub. O vaxt onun təmsil olunduğu partiya parlament seçkilərinə hazırlaşırdı. 6 ay ərzində internetdə Berbokun müxtəlif saxta fotoları yayılıb: kollajların birində onun üzü çılpaq bədəni ilə birləşdirilib. Şəkilaltı mətndə iddia olunurdu ki, gəncliyində Berbokun yaşamaq üçün kifayət qədər pulu olmayıb. Əslində, bu məlumat reallıqdan uzaq olub. "Süni intellekt dezinformasiyanı daha ucuz, asan və effektiv edir", – deyə Almaniyanın xarici işlər naziri Bonnda DW media forumunda çıxışında xəbərdarlıq edib.

Köln Biznes Məktəbinin animasiya prodüseri və media menecmenti professoru Mixael Şvertel xatırladıb ki, texnologiyanın sürətli inkişafı səbəbindən hansı materialda süni intellektdən istifadə edildiyini və ya istifadə edilmədiyini başa düşmək getdikcə çətinləşir. O, adi proqram təminatından istifadə etməklə qısa müddətdə videonu redaktə etməyin mümkün olduğunu bildirib. Bununla bağlı video-rolik nümayiş etdirib. Rolikdə bir obyekt digəri ilə əvəz edilib və ya o tamamilə çərçivədən çıxarılıb. Şvertel deyir ki, getdikcə populyarlaşan Luma AI aləti bir fotoşəkildən 120 saniyə ərzində bir neçə saniyəlik animasiya videosu yaratmağa qadirdir: "Təsəvvür edin ki, belə texnologiyanın köməyi ilə siz istənilən siyasətçinin şəklini canlandıra bilərsiniz. Bunun üçün böyük büdcəyə ehtiyac yoxdur". Bu texnologiya vicdanlı istifadəçilərə yüksək keyfiyyətli və aşağı büdcəli filmlər yaratmağa kömək edə bilər, lakin cinayətkarların əlində bu, ciddi silahdır.

O qeyd edib ki, indi süni intellektlə bağlı ən böyük təhlükə fırıldaqçıların fəal şəkildə istifadə etməyə başladığı saxta səs yazılarından qaynaqlanır: "Söhbət ədiyim qadınlardan birinə ərinin səsi ilə saxta audio yazısı göndərilib. O, səsin həyat yoldaşına aid olduğuna inanıb. Sanki o xəstəxanadadır və arvadından təcili olaraq "filan" nömrəli bank hesabına 5 min avro köçürməsini istəyib. Sonradan məlum olub ki, səs ərinə aid deyil və süni intellekt vasitəsilə yaradılıb".

Bu texnologiya Rusiya təbliğatı ilə əlaqəli "Telegram" kanalları tərəfindən bir neçə ildir ki, istifadə olunur.

"Süni intellektin zərərləri sırasında vətəndaşların şəxsi informasiyalarının təhrif olunması, konfidensiallığın pozulması və informasiyanın montajı, etik və hüquqi problemlər də var. Yəni süni intellektin köməyi ilə şəxsin videosunun üzərinə səs yazıla bilər. "Pishing" adlanan applikasiya süni intellektin ən təhlükəli tətbiqetmələrindən biridir. Vaşinqton Universitetindən olan proqramçılar saxta videoda istənilən sözü Barak Obamanın dilindən deyə biləcək suni alqoritm yaradıblar. "Siz ən kiçik pikselinə qədər həqiqi video və ya audioya bənzəyən saxta videolar yarada bilərsiniz." – deyə Kembric Universitetinin nümayəndəsi Şahar Avin bildirib.

"Deepfake" vasitəsilə də çoxlu saxta xəbərlər yaratmaq mümkündür. Bu fırıldağın arxasında dayanan real şəxsin tapılmasına gəldikdə isə, bu şəxsləri müəyyən etmək üçün informasiya və kommunikasiyalar haqda dərin biliklərə sahib olmaq lazımdır".

Artıq süni intellekt silahlı münaqişələrdə də fəal şəkildə istifadə olunur. Avstraliya, Böyük Britaniya və ABŞ-ın yaratdığı üçtərəfli müdafiə ittifaqı olan AUKUS Çinlə rəqabəti artırmaq üçün artıq avtonom silah sistemlərini sınaqdan keçirir. Süni intellekt silahlarından Liviya, Yəmən və Ukraynada da istifadə edilib. İsrail Müdafiə Qüvvələri Qəzza zolağında HƏMAS-ın hədəflərinə zərbələr endirərkən hədəfləri seçmək üçün süni intellektdən istifadə edib.

Süni intellektin istifadəsi üçün kifayət qədər çox sahə var. Məsələn, süni intellekt hərbçilərin həyatını xilas edə, təhlükəli tapşırıqları yerinə yetirə, ərazini kəşf edə, partlayıcıları zərərsizləşdirə bilir.

Süni intellekt qərar qəbuletmə prosesinə də təsir edir: məlumatların dəqiq təhlili düşməni daha effektiv müəyyən edərək və məğlub etməyə kömək edir. Avtomatlaşdırılmış sistemlər dronların məlumatlarından istifadə edərək minimum səhvlərlə ağıllı qərarlar qəbul edir. Bu sahənin mütəxəssisi Sahar Avin deyir: "Müharibə ərazisində çoxlu sensor və sistemləri olan robotların fəaliyyət göstərməsi sizə rəqib qarşısında üstünlük yaradır. Həmin robotlar döyüş meydanında baş verən hadisələrlə bağlı sizə terabaytlarla informasiya göndərir. Beləcə siz sisteminin göndərdiyi məlumatlara uyğun qərarlar verirsiniz".

Bununla belə, hərbçilər tərəfindən süni intellektdən istifadə potensial təhlükələrə görə kifayət qədər narahatlıq doğurur. Birincisi, bu onunla bağlıdır ki, texnologiyanın inkişafı avtonom silah sistemlərinin inkişafı, nüvə silahlarına nəzarət və istifadə, kəşfiyyat məlumatlarının toplanması kimi mühüm sahələrə təsir göstərir. Beləliklə, düşmən tərəfindən süni intellekt sistemlərinin sındırılması və manipulyasiyası riski var ki, bu da məxfi məlumatların oğurlanmasına səbəb ola bilər. İkincisi, süni intellekt gözlənilməz olaraq qalır və uğursuzluqlar və ya səhvlər baş verdikdə, kimin məsuliyyət daşıdığını müəyyən etmək çətindir və bu, müxtəlif şəxslərə gözlənilmədən zərər verə bilər.

*Hazırladı:*
**PÜNHAN**
**XQ**

Aydın Ağazadə – 70

# Yaşın müdriklik dövrü

**Yazıçı-publisist Aydın Ağazadə Azərbaycan mətbuatında öz sözü və imzası ilə tanınan qələm sahiblərindəndir. Bu gün "hüquq jurnalistikası" dedikdə, ilk növbədə, kütləvi informasiya vasitələrində qanunçuluqla, ictimai asayişin qorunması, istintaq və məhkəmə orqanlarının fəaliyyəti ilə bağlı mövzuların işıqlandırılması, hüquqi aktların şərhi, kriminal xronika nəzərdə tutulur. Əslində isə həmin anlayışın həqiqi yozumu daha dərin və əhatəlidir. O, mediada hüquqi təbliğatla yanaşı, həm də jurnalistin, mətbuatla əlaqəli məmurun öz fəaliyyətində hüquq normalarına, peşə etikasına düzgün riayət etməsi deməkdir. Bu baxımdan Aydın Ağazadə müstəqillik illərində Azərbaycan mətbuatının hüquq jurnalistikasının ilk qaranquşlarından, dəyərli nümayəndələrindən biridir.**





İstedad təkcə fitri bacarıq, Tanrı vergisi deyil, həm də çalışqanlıq, əzm, iradə və davamlı inkişaf deməkdir. Bu qabiliyyətə yüksək mənəvi-əxlaqi keyfiyyətlər, geniş dünyagörüşü, əsil vətəndaş mövqeyi kimi xüsusiyyətlər aşılananda isə cəmiyyət istedadlı insanı əsil ziyalı kimi qəbul edir. Yaşlı və orta nəsl Aydın Ağazadəni məhz istedadlı jurnalist və ziyalı kimi tanıyır. Müstəqillik dövrünün hüquq jurnalistikası onun gözləri qarşısında inkişaf etmiş, püxtələşmişdir. Bu inkişafda onun da payı var.

Aydının qənaətinə görə, bu gün mətbuat vətəndaşların hüquqi maarifçiliyinin əsas mənbələrindən biri sayılır: "Məni həm jurnalist, həm də hüquqşünas kimi, ilk növbədə, kütləvi informasiya vasitələrində hüquq və hüquqpozmalar ilə bağlı yayılan informasiyanın ictimai şüura təsiri daha çox maraqlandırır. Əlbəttə, hər kəsin müstəqil məlumat almaq və yaymaq hüququ var və bu prinsip Konstitusiyada da öz əksini tapıb. "Müstəqillik" isə hüquqi çərçivəsi olan anlayışdır. Jurnalistlərə verilən bu hüquq başqalarının hüququnu nə məhdudlaşdırmalı, nə də pozmalıdır. Bəzən oxucu dairəsinin genişləndirilməsi naminə kriminal hadisələrin, cinayətkar elementlərin təbliği mətbuatda hüquqi maarifçiliyi üstələyir. Azərbaycan mətbuatında böyük irəliləyişlər olmasına baxmayaraq, təəssüf ki, bu kimi hallara hələ də rast gəlinir. Jurnalist yalnız informasiya daşıyıcısı deyildir, o həm sosioloq, həm də ictimai rəyi formalaşdıran ideoloji işçidir…"

Əməkdar jurnalist Aydın Ağazadə 1955-ci ildə Bakının tarixi mərkəzində – İçərişəhərdə dünyaya göz açıb. Əvvəlcə Mirzağa Əliyev adına Dövlət İncəsənət İnstitutunun teatrşünaslıq, sonra isə Bakı Dövlət Universitetinin hüquq fakültələrini bitirib. Aydın peşəkar teatrşünas da ola bilərdi. Hətta tələbəlik illərində qələmə aldığı "Mehdi Hüseyn və teatr" mözusunda kurs işini Azərbaycan səhnəsinin korifeyi, görkəmli rejissor Mehdi Məmmədov yüksək qiymətləndirmiş, ona Azərbaycan Teatr Xadimləri İttifaqına üzv olmağı təklif etmişdi.

Aydın 2001-ci ilə kimi ömrünü jurnalistikaya və teatrşünaslığa bağlayıb, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində, "Ədalət", "Azərbaycan" və "Hüquqşünas" qəzetlərində şöbə müdiri, redaktor vəzifələrində çalışıb. Daha sonra hüquq təhsili və zəngin jurnalistika təcrübəsi sayəsində ədliyyə sisteminə dəvət alıb. Ədliyyə Nazirliyinin mətbuat xidmətinin rəhbəri, insan hüquqları və ictimaiyyətlə əlaqələr idarəsinin informasiya şöbəsinin rəisi təyin olunub. "Həsən Əliyev – hakim və insan", "Cəllad aman istəyir", "Əbədi Selcan", "Sabun köpüyü", "Türkün böyük lideri. Siyasi liderin portreti" kimi kitablarının, çoxseriyalı "Sonuncu şahid" televiziya filminin müəllifidir. "Qızıl qələm" və "Araz" ədəbi mükafatlarına layiq görülmüşdür.

Ədliyyə sistemindən təqaüdə çıxdıqdan sonra yenidən jurnalistika mühitinə qayıtmış, "525-ci qəzet"in Türkiyə üzrə müxbiri olmuşdu. Həmin dövrlərdə Türkiyənin siyasi və mədəni mühitini dərindən öyrənmiş və müşahidələri yeni əsərində – Prezident Rəcəb Tayyib Ərdoğana həsr etdiyi "Türkün böyük lideri. Siyasi liderin portreti" kitabında öz əksini tapmışdı. Kitab Türkiyə rəhbərində xoş təəsürat yaratmışdı.

Onun zəngin jurnalistika təcrübəsində illər uzunu topladığı hüquqi bilik və bacarıqlar özünəməxsus fərdi xüsusiyyətləri ilə seçilir. Aydın peşəkar və məsuliyyətli hüquqşünas kimi başqalarını, xüsusilə, müsahibini səbrlə dinləməyi, hiss və həyəcanını duymağı, mövqeyini, hətta deyə bilmədiklərini belə anlamağı, özünü həmsöhbətinin yerinə qoymağı, səmimi ünsiyyət, qarşılıqlı etimad qurmağı bacarır. Deyir ki, o insanlar ədalətli olur ki, onların ürəyində ədalətə, şəxsiyyətə hörmət və insanlara sevgi var. Bu amillərə hüquq müstəvisindən yanaşsaq, həmin keyfiyyətlər həm jurnalistikanın, həm də hüquqşünaslığın başlıca prinsipləri olmağa layiqldir. Aydın Ağazadənin qələmə aldığı kitab və məqalələrdə, aparıcısı olduğu televiziya verilişlərində də məhz bu xüsusiyyətlər özünü qabarıq göstərir. O, sakitcə başını aşağı salıb üzərinə düşən, lazım bildiyi işin öhdəsindən qüsursuz gəlməyə çalışır. Uzun illər topladığı bilik və təcrübəsini gənc jurnalistlərlə həvəslə bölüşür. Hüquqi maririfçilik mövzusunda ixtisaslaşmış neçə-neçə mətbuat işçisi onu bu gün də özünə müəllim sayır.

Yubiley ömrün ötən illərinə qiymət vermək, gələcək üçün yeni yaradıcılıq hədəflərini müəyyən etmək üçün uğurlu bəhanədir. Düz 10 il əvvəl, 60-ında mətbuata verdiyi müsahibələrin birində demişdir: "İnsan yaşa dolduqca həyata daha sıx sarılır, həyatın mənasını, müəllimlərinin, qazandığı dostların və təcrübənin qədir-qiymətini daha yaxşı anlayır. Çünki məhz bu mərhələdə hədər yerə ömür sürmədiyini və qazandığın bütün uğurlarda onların da payı olduğunu aydın dərk edirsən". Çünki yubiley həm də həyatın növbəti mərhələsinin başlanğıcıdır. Bu başlanğıcda Aydın Ağazadəyə yeni uğurlar arzulayırıq.

***Arazz QURBANOV***

# Böyük Millət Məclisində Xocalı soyqırımı qurbanları yad ediləcək



**Türkiyə Böyük Millət Məclisinin konfrans zalında Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı tədbir keçiriləcək. Bu barədə Azərbaycanın Türkiyədəki səfirliyindən bildirilib.**

Məlumata əsasən, anım tədbiri fevralın 24-də Türkiyə Böyük Millət Məclisinin nəzdində Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfi tərəfindən Azərbaycan diplomatik missiyasının dəstəyi ilə təşkil olunacaq.

***XQ***

# İqdırlı şagirdlər üçün Xocalı soyqırımı mövzusunda müsabiqə

**Türkiyənin İqdır vilayətindəki liseylərin şagirdləri arasında Xocalı soyqırımının 33-cü ildönümünə həsr olunmuş ən yaxşı rəsm, şeir və inşa müsabiqəsi elan edilib.**




Xüsusi münsiflər heyəti müxtəlif nominasiyalar üzrə üç ən yaxşı iştirakçını seçəcək və qaliblər fevralın 24-də İqdırda keçiriləcək anım mərasimində mükafatlandırılacaqlar.

Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədr müavini, İqdırdakı "Azərbaycan Evi"nin rəhbəri Serdar Ünsal vilayətin bütün liseylərində təhsil alan şagirdləri müsabiqədə fəal iştirak etməyə çağırıb: "Ermənistanın Azərbaycan torpaqlarını işğalı zamanı törətdiyi cinayətlər yaddaşımızda təzədir. Ermənilərin Xocalıda, Şuşada, Kəlbəcərdə, Ağdamda və Azərbaycanın digər bölgələrində törətdikləri vəhşilikləri Türkiyənin bütün sakinləri bilməli və xatırlamalıdırlar".

***XQ***

# Ordumuzda andiçmə mərasimləri keçiriləcək

**Fevralın 16-da Azərbaycan Ordusunun hissə və bölmələrində gənc əsgərlərin andiçmə mərasimləri keçiriləcəkdir.**

Mövsümü xarakter daşıyan respirator virus infeksiyalarına yoluxma halları nəzərə alınaraq adaptasiya dövründə olan gənc əsgərlərin sağlamlığının qorunması məqsədilə hərbi hissələrdə görüşə müvəqqəti məhdudiyyət qoyulub. Vətəndaşlardan hərbi qulluqçularımızın sağlamlığına həssaslıqla yanaşmaq, qeyd olunan məhdudiyyəti anlayışla qarşılamaq, andiçmə mərasimləri zamanı hərbi hissələrə gəlməmək xahiş edilir.



**XQ**

# Gəncədə ağsaqqallar və gənclər bir arada



**Azərbaycan Ağsaqqallar Şurası Qərbi azərbaycanlılara dəstək devizi ilə Gəncədə regional konfrans keçirib.**

"Ulu öndər Heydər Əliyevin gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir" mövzusuna həsr olunmuş regional konfransda ölkəmizin Qərb bölgəsi – Gəncə, Qazax, Şəmkir, Ağstafa, Daşkəsən, Gədəbəy, Samux, Tovuz, Göygöl, o cümlədən Kəlbəcər rayonu üzrə Azərbaycan Ağsaqqallar Şurasının, Qərbi Azərbaycan İcmasının, YAP-ın və gənclər təşkilatlarının üzvləri, ziyalılar iştirak ediblər.

Azərbaycan Dövlət Aqrar Universitetinin tarixi binasında keçirilən konfransı giriş sözü ilə bu ali təhsil ocağının rektoru Zəfər Qurbanov açaraq, əsasını ulu öndər Heydər Əliyevin qoyduğu dövlət gənclər siyasətinin uğurlarından və hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilməsindən danışıb. Ağsaqqalların gənclərlə apardığı işləri yüksək qiymətləndirən natiq bildirib ki, gənclərin Qərbi Azərbaycana qayıdış konsepsiyasının gerçəkləşdirilməsində fəal iştirakı mühüm əhəmiyyət daşıyır.

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev Ağsaqqallar Şurasının təşəbbüsü ilə keçirilən regional konfransı Qərbi Azərbaycana qayıdış istiqamətində növbəti uğurlu addım hesab edərək, bu ideyaya hər bir vətəndaşın dəstək olmasının zəruriliyini vurğulayıb.

Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, təşkilatın Qərb regionu üzrə kuratoru Bayram Yusifov ümummilli lider Heydər Əliyev tərəfindən hər zaman prioritet və aktual hesab edilən əzəli torpaqlara qayıdış məsələsini bu gün cənab İlham Əliyevin dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevirdiyini qeyd edib. O deyib ki, biz ağsaqqallar və gənclər də Qərbi azərbaycanlıların haqq səsini beynəlxalq aləmə çatdırmalıyıq.

Regional konfransda YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, Azərbaycan Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvü, AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev, Gəncə Şəhər Ağsaqqallar Şurasının sədri, professor Nurəddin Məmmədov, Gəncə–Daşkəsən Regional Gənclər və İdman İdarəsinin rəisi Elvin Quliyev, Qərbi Azərbaycan İcmasının üzvü, tanınmış alim Bayram Apoyev, İcmanın Gəncə nümayəndəsinin müavini Arifə Əhmədova və başqaları çıxış edərək yüz minlərlə Qərbi azərbaycanlının haqqının bərpası və onların öz ata-baba yurdlarına qayıdışının həyata keçirilməsi üçün böyük işlər görüldüyünü vurğulayıblar.

Tədbirin sonunda Fuad Əliyev Gəncə Şəhər Ağsaqqallar Şurası tərəfindən səmərəli fəaliyyətinə görə və 75 illik yubileyi münasibətilə fəxri fərmanla təltif olunub. Gəncə Şəhər Ağsaqqallar Şurasının qadın üzvlərinə vəsiqələr təqdim edilib.

***HHamlettQASIMOV,***
***XQ-nin bölgə müxbiri,***

**Gəncə**

# Lənkəranda yubiley – konsert proqramı



**"Azərişıq" ASC 10 fevral 2015-ci ildə təsis edilib. Qurumun yaranmasının 10-cu ildönümü ilə əlaqədar Lənkəranda yubiley- konsert proqramı təşkil olunub.**

Mərasimdən əvvəl iştirakçılar Lənkəran şəhər Mədəniyyət Mərkəzində qurumun fəaliyyətindən bəhs edən "Azərişıq – işıqlı 10 il" başlıqlı fotosərgi ilə tanış olub və bu barədə videoçarxı izləyiblər.

Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov çıxışında bildirib ki, enerji siyasətimizin əsası ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun sözlərinə görə, məhz Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrlərdə elektrik enerjisi sisteminin inkişafı daim prioritet məsələlər sırasında olub, bu sistemin sürətli inkişafını təmin etmək məqsədilə bir sıra irimiqyaslı layihələr reallaşdırılıb. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasi fəaliyyət nəticəsində ölkəmiz nəinki elektrik enerjisinə olan tələbatının yerli imkanlar hesabına ödənilməsini təmin edib, eyni zamanda, elektrik enerjisi ixrac edən respublikaya çevrilib.

"Azərişıq" ASC sədrinin müşaviri Xalid Təhməzov, qurumun "Cənub" Regional Enerji Təchizatı və Satışı İdarəsinin rəisi Elgün Məmmədov bildiriblər ki, bu təsərrüfat sahəsində istismar müddəti bitmiş avadanlıqlar texniki baxımdan daha müasir və güclü olanlarla əvəzlənir, yeni yarımstansiyalar tikilir, uzun müddət istismarda olan naqil və açıq tipli hava xətləri yeni müasir tipli izolyasiyalı naqillərlə əvəz olunur. Hazırda Cənub regionu üzrə 25 kəndin elektrik təsərrüfatında yenidənqurma işləri davam etdirilir. 44 kəndin elektrik təsərrüfatında yenidənqurma işlərinin aparılması nəzərdə tutulub.

Daha sonra şəhid Şəhriyar Həbibinin anası Təranə Həbibova çıxış edib və əhalinin hər zaman dövlət qayğısı ilə əhatə olunduğunu bildirib.

Tədbirin rəsmi hissəsindən sonra maraqlı konsert proqramı izlənilib.

**Ə.ƏLİYEV**
**XQ**

# Aşıq Alının aranıb-arınan şeirləri

**Gələn il Haqq Aşığı Alının 225 yaşı tamam olacaq. Poeziyanın, aşıq ədəbiyyatının pərvanələri onu zirvə şairi kimi tanıyır, gəraylı, qoşma, təcnis və digər janrlarda yazdığı şeirlərini sevə-sevə oxuyurlar.**



Aşıq Alının yaradıcılığı indiyədək geniş tədqiq edilib, haqqında yazılan, eləcə də seçmə şeirlərindən ibarət olan neçə-neçə kitab çıxıb. Bunlardan biri də 2020-ci ildə araşdırmaçı şair-publisist İlham Qəhrəmanın müxtəlif mənbələrdən onun şeirlərini toplayıb tərtib etdiyi "Nə qaldı" kitabıdır. 500 nüsxə tirajla çap olunmuş həmin kitab əvvəlkilərdən cinasların daha düzgün qurulması və hər bir çətin cinasa ətək şərhinin verilməsi ilə seçilir. Təsadüfi deyil ki, az vaxtda satılan "Nə qaldı"dan əldə arxiv üçün cəmi bir neçə nüsxə qalıb.

Bizimlə söhbətində İlham Qəhrəman bildirdi ki, eyni zamanda, Haqq Aşığının qohumları ona etibar edərək, əldə-ovucda saxladıqları şeirlərini (əsasən təcnisləri) vermişdilər. 400 səhifəlik kitab aşıq şeirinin düzülüş ənənəsinə uyğun olan ardıcıllıqla – ustadnamələrlə başlayıb, divani, qıfılbənd və bağlamalarla – tamamlanırdı. Kitaba sonda "Sözlük" də əlavə edilib ki, oxucu çətin anlaşılan sözləri, dini-mifoloji məfhumları, ərəb və fars tərkibli ifadələrin mənasını öyrənmək üçün uzağa getməsin.

**İlham Qəhrəmanın daha sonra dedikləri:**

– Kitaba "Könül işi" adlı geniş ön sözüm də gedib. Orada yazmışam: "Aşığın anası Fatma xanıma həsr etdiyi şeirdən gəlib əlimizə çatan bir bu sağır bənd qalıb:

**Övladın qəhrinə ana dayanar,**
**Çəksə də ətəyin ha yana, yana.**
**Özgə gələr, ağız ağlar yan keçər,**
**Ana candan ağlar ha yana-yana.**

Amma bir məclisdə Göyçənin Ardanış kəndindən olan Aqil Kərimov mənə dedi ki, bəs, sən ön sözündə Alının anasına həsr etdiyi şeirin bir bəndini vermisən. Qeyd edim ki, o sağır bənd Aşıq Alının qohumu şair Telman Hüseynin dilindən yazılmışdı – mən şeiri bütöv əzbər bilirəm.

Aqil müəllimin bu xəbəri məni çox sevindirdi. Telefonu açıb onun söylədiyi həmin dodaqdəyməz təcnisi səs yaddaşına köçürdüm. Şeir tam olaraq belədir:

**HA YANA, YANA**

**Övladın qəhrinə ana dayanar,**
**Çəksə də ətəyin ha yana, yana.**
**Özgə gələr ağız ağlar yan keçər,**
**Ana candan ağlar ha yana-yana.**

**Ata-ana kainatla yarıdı,**
**Səxasından yarananlar yarıdı,**
**Naqis canan yaxşı günün yarıdı,**
**Analar hər anı hayana yana!**

**Ata şahdı – tanı, Alı, a nadan,**
**Atasansa, nə ata, nə ana dan.**
**Canda nəsə keçir ata-anadan,**
**Atalardı irsə hayan, ay ana.**

Bu görüşdən sonra məndə belə bir qənaət hasil oldu ki, kitab bir də çap olunmalıdır. Odur ki, yenidən gümanım gələn mənbələrə nəzər etdim. Və bir gün "Dədə Ələsgər Ədəbi Məclisi"nin təşkil etdiyi tədbirdə daha bir xoş təsadüf oldu. Bir nəfər Məclisin rəhbəri, Aşıq Ələsgərin nəticəsi Xətai müəllimə "Azərbaycan ədəbiyyatı inciləri" adlı kitab bağışladı. Tərtibçisi Elxan Məmmədli olan kitabı xahişlə Xətai müəllimdən aldım ki, baxıb qaytararam. Evə gəlib kitabı vərəqləyəndə məlum oldu ki, Aşıq Alı Qızılvənglinin adına verilmiş 2 təcnis bizim tərtib etdiyimiz kitaba düşməyib. Həmin təcnislər bunlardır:

**CAN CANDAN AYRI**

**Eşqin fəraqından cismim kül oldu,**
**Əzabı hiss etməz can candan ayrı.**
**Şəmsi qiyafəndən təcrid eyləmə,**
**Zalım, yaşayarmı can candan ayrı?!**

**Dəhşət olar bir də alsa yara nar,**
**Üz baxçandan peşkəş eylə yara nar,**
**Qiyamətlər qopar, məhşər yaranar,**
**Həmgiryan yaşasa, can candan ayrı.**

**Alı piran oldu şahanə qaldı,**
**Bir kəfəndən qeyri şaha nə qaldı?!**
**Heyif ki, bilmirsən, şaha, nə qaldı,**
**Ucbatından düşdü, can, candan ayrı.**

**AY ATA MƏNİ**

**Pərvanə yanmasa naləsi kəsməz,**
**Yar firqəti oda ay ata məni.**
**Qüdrətimi rüsxətində taparam,**
**Rüsxət ver, suvar et ay ata məni.**

**Saxlayar mizanda qal, ayar yarı,**
**Çox salıbdı qeyli-qala yar yarı.**
**Yar firqəti oda qalayar yarı,**
**Salma nəzərindən, ay ata, məni.**

**İbtidadan peyman etdim qal andı,**
**İqbal yatdı qəm-qəm üstə qalandı,**
**Güman etmə Alı Türkdə qalandı,**
**And vermə Qurana, ayata məni.**

İlham Qəhrəmanın dediyinə görə, o, bu xəbəri Aşıq Alının bacısı Pəri xanımın vaxtilə Vediyə gəlin köçən nəvəsi Şəkər xanımın 1948-ci ildə Bərdəyə köçürülən nəvəsi şair Telman Hüseynə çatdırıb. Telman Hüseyn xəbərdən çox sevinib və deyib ki, "Nə qaldı" kitabı çap olunandan sonra o da Alının bir təcnisini tapıb...

**(ardı var)**

*Hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

# Özbək tələbələr təcrübə keçəcək





**Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə Özbəkistan Dövlət İncəsənət və Mədəniyyət İnstitutu arasındakı razılığa əsasən, bu ali təhsil ocağının tələbələri Mərkəzdə təcrübə keçəcəklər.**

Layihə çərçivəsində tələbələr Azərbaycan dili kurslarında iştirak edəcək, eyni zamanda, müxtəlif mədəni tədbirlərin təşkilinə qoşularaq bilik və bacarıqlarını təkmilləşdirəcəklər. Təcrübə proqramı ərzində onlar Azərbaycan tarixi, ədəbiyyatı və incəsənəti ilə yaxından tanış olacaq, milli-mədəni irsimizi dərindən öyrənəcəklər.

Bu layihə tələbələr üçün həm akademik, həm də praktiki biliklər əldə etmək baxımından böyük fürsətdir. Azərbaycan dilinin Özbəkistanda öyrənilməsi iki ölkə arasında elmi və mədəni əməkdaşlığın inkişafına mühüm töhfə verəcək. Gələcəkdə belə proqramların davamlı olması və daha genişmiqyaslı təşəbbüslərin həyata keçirilməsi planlaşdırılır.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan üzrə xüsusi müxbiri*
**Daşkənd**

# "Sonsuz" filmi xüsusi mükafata layiq görülüb



**Ərdəbilli gənc sənətçi Rza Camalinin rejissoru olduğu "Sonsuz" filmi Fəcr Film Festivalında münsiflər heyətinin xüsusi mükafatı olan "Kristal Simurğ"a layiq görülüb.**

"Sonsuz" Rza Camalinin Ərdəbildə, özü də Azərbaycan türkcəsində çəkilmiş ilk bədii filmidir. Kinolent qadın sonsuzluğu ilə bağlı yanlış fikirləri tənqid etmək üçün yumoristik, lakin acı-şirinli üslubdan istifadə edilən komediyadır. Tənqidçilərin fikrincə, bu filmin özünəməxsus xüsusiyyətlərindən biri də ona müəyyən orijinallıq və mədəni kimlik verən türk dilindən istifadə olunmasıdır.

"Atabay" və "Ev" kimi filmlərin son illərdəki uğurlu təcrübəsi göstərir ki, türk dili kino əsərlərini daha cəlbedici edir, qonşu ölkədə geniş tamaşaçı kütləsinin ruhunu oxşayır.

Xatırladaq ki, hələ bir neçə il əvvəl Rza Camalinin ana dilimizdə çəkdiyi "Qocalar ölməz" qısametrajlı filmi də diqqət cəlb etmiş və İran, Almaniya, İtaliya, İngiltərə, Türkiyə və s. kimi ölkələrdə layiqli təqdirini qazanmış, o cümlədən Yaponiyada keçirilən beynəlxalq festivalda "Asiya ruhu" mükafatına layiq görülmüşdü.

Kinoşünasların fikrincə, "Sonsuz" builki Fəcr festivalında ən çox diqqət çəkən və fərqli əsərlərdən biri olub, o, kənd icmalarında qadın sonsuzluğu kimi həssas və nadir hallarda rast gəlinən bir məsələyə toxunmaqla tamaşaçıların və tənqidçilərin diqqətini cəlb etməyi bacarıb.

*XQ*

**Əlağa Vahid – 130**

# "Böyük Füzulimizin yadigarı mən özüməm"

**Mən həmişə əsrimizin Füzulisi sayıla biləcək Əlağa Vahidin əsərlərini oxuyarkən düşünürəm ki, necə də gözəl sevib, necə də dərin düşünüb! Vahidin özünəxas söz dünyası var. Bədahətən şeir deməsi, sanki, bu cılız, arıq insanın daxilindən gələn bir vulkan püskürməsi idi. O, səssiz qala bilmirdi, gördüyünü, duyduğunu, düşündüyünü mütləq bədii sözə, şeirə çevirirdi. Axı o, Vahid idi...**



**Bilməm, bu nazənin kimin istəkli yarıdır?**
**Ya hansı bəxtiyarların bəxtiyarıdır!**
**Açdıqca gül camalını, ellər fərəhlənir,**
**Guya, gözəllik aləminin növbaharıdır.**

1895-ci ilin 17 fevralında Abşeronun Masazır kəndində dünyaya göz açan Əlağa Məmmədqulu oğlu İsgəndərov mollaxanada təhsil alıb. Ailə vəziyyətinə görə bir müddət sonra yarıkönüllü də olsa, getdiyi mollaxanada artıq təhsil ala bilməyib. Əmisinin himayəsində böyüyüb və erkən fəhlələyə başlayıb.



Həmin illərdə Bakıda "meyxana" xalq şeir növü geniş yayılmışdır. Bakı əhli bu sənət növünə xüsusi maraq göstərirdi. Məhz buna görə yeniyetmə Əlağanın da söz sənətinə sevgisi, ilk növbədə, meyxana ilə əlaqəli olub. Zaman keçib, illər bir-birini əvəz edib və Əlağa şeir, sənət yolçusuna çevrilib. 1915–16-cı illərdə onun şeirləri "Babayi-Əmir", "Tuti", "Məzəli", "Ovraqi-nəfisə" kimi jurnallarda çap olunub. Qəzəlləri isə 30-cu illərdən sonra nəşr edilib. Əlağa Vahid irsinin tədqiqatçısı Məmməd Nuruoğlu "Əsər ki qaldı cahanda" (Bakı 1983) kitabında qəzəlxanın əvvəlki nəşrlərinə də diqqətlə yanaşıb.

"Vahid" təxəllüsünün Əlağaya verilməsi qəzəl şairi Mirzə Əbdül Xalıqla bağlıdır. O, gənc qəzəlxanın təbini bəyənərək, deyib: "Vahid, gərək də fərqlənəsən sən bu xudnimalar ilə".

Vahidin həyatı, yaradıcılığı çox keşməkeşli olub. O, hamı kimi deyildi, hər kəs kimi düşünmürdü. Qələmi, sözü, dili xalqın ürəyindən xəbər verirdi. O, sanki, Bakı küləyinin xəzrisi, gilavarı idi. "Böyük Füzulinin yadigarı mən özüməm", – deyən Vahid Yaxın Şərqin böyük qəzəlxanını özünə ustad hesab edib, onun bədii üslubundan, əruz bəhrlərindən faydalanaraq öz yaradıcılığında bədii dolğunluğa nail olan söz ustadına çevrilib.

**Bu fəxrdir mənə, Vahid ki, xalq şairiyəm,**
**Ucaltdı ömrümü nəşvü nüması ölkəmizin!**

– deyən söz ustadı xalqın sevgisini daim hiss edirdi. İkinci Dünya müharibəsi illərində o günün çağırışları ilə bağlı qəzəllər, satiralar yazıb yaradırdı. "Döyüş qəzəlləri", "Qəzəllər" kitablarında Vahid vətənə məhəbbəti, düşmənə nifrəti təbliğ edib.

**Torpaq dolsun çeşminə torpaq**
**satan namərdlərin,**
**Mərd odur ki, düşmənə can versə,**
**torpaq verməsin...**

Onun yaradıcılığı tək bununla bitmirdi. Nizami, Xaqani, Füzuli, Nəvai və digər ediblərin qəzəllərini Azərbaycan dilinə tərcümə edib. Vahid sevgi şairi idi. O ürəkdən sevirdi, gözəl sevirdi. Əks təqdirdə məhəbbətini belə gözəl vəsf edə bilməzdi:

**Gözəlim, gözlərinin söhbəti hər yanda olur,**
**Bu məlahətli baxışlar üzü ceyranda olur.**
**Bir əlac et mənə istəkli təbibim sənsən,**
**Aşiqin çarəsi öz sevdiyi cananda olur.**

Deyilənlərə görə, Vahid ağ ciyərlərindən çox əziyyət çəkirdi. Və beləliklə, Vahid M.Bağırovun "repressiya" siyahısından çıxarılsa da, əcəl onu 70 yaşında haqlayıb. Əlağa Vahid 1 oktyabr 1965-ci ildə vəfat edib. Xalq onu, sözün əsl mənasında, əlləri üstündə "Fəxri Xiyaban"a apararaq, son mənzilə yola salıb. Ölümündən sonra onun xatirəsinə Filarmoniya bağında heykəli qoyulub. Həmin abidə sonra İçərişəhərə köçürülüb. Abidənin mövzusu "Böyük Füzulimizin yadigarı mən özüməm" misrasından qaynaqlanır.

Vahid haqqında "Azərbaycanfilm" Kinostudiyasında aktyor, ssenarist, rejissor, Xalq artisti Şahmar Ələkbərovun son işi hesab olunan "Qəzəlxan" bədii filmi də çəkilib və Vahidin sağlığında lentə alınmış səsindən istifadə olunub.

Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli qərarı ilə Əlağa Vahidin əsərləri dövlət varidatı elan edilib. Biz bir xalq, millət olaraq Vahidi hər zaman böyük məhəbbətlə sevir, adını hörmətlə anır və dəyərləndiririk.

*Könül ABSƏTTAR QIZI*

# Musiqi tədris proqramları yenilənib

**Mədəniyyət Nazirliyi tərəfindən musiqi və incəsənət məktəblərində tədris olunan fortepiano, tar və violin ixtisaslarından sonra qanun, qarmon və kamança ixtisaslarının da tədris proqramı yenidən işlənib.**




Nazirlikdən verilən məlumata görə, bu yenilənmə şagirdlərin tətbiqi və nəzəri biliklərinin daha səmərəli şəkildə artırılmasını təmin etmək məqsədi daşıyır və müasir təhsil standartlarına uyğunlaşdırılıb. Yenilənmiş proqramlarda Azərbaycan bəstəkarlarının əsərlərinə xüsusi yer ayrılıb, onların öyrənilməsinə üstünlük verilib.

Yeni proqram çərçivəsində musiqi ifaçılığı, texnika və yaradıcılıq bacarıqları daha geniş və əhatəli şəkildə tədris ediləcək. Fortepiano, tar, qanun, qarmon, kamança və violin siniflərində tətbiq olunacaq bu metodika gənc istedadların potensialının inkişafına və peşəkar musiqi təhsili ilə təmin edilməsinə yönəlib.

Yaxın gələcəkdə digər ixtisas siniflərinin də tədris proqramlarının yenilənməsi nəzərdə tutulur.

*XQ*

BEYNƏLXALQ HƏYAT

# Münxen konfransı: Ukrayna böhranı qlobal siyasət spektrində



**Münxendə növbəti Avropada Təhlükəsizlik Konfransı keçirilir və bu gün toplantının sonuncu iş günüdür. Sammitdə 60-dan çox ölkənin dövlət və hökumət başçısı, 100-dən artıq xarici işlər naziri iştirak edir. Ukrayna Prezidenti Volodimir Zelenski də buradadır. Amma Rusiya rəsmiləri məlum səbəblərdən konfransa dəvət olunmayıblar.**

Konfrans ərəfəsində Prezident Donald Tramp deyib ki, ABŞ, Rusiya və Ukrayna siyasətçiləri Münxen sammiti çərçivəsində bir araya gələcəklər və müharibəni dayandırmaq üçün danışıqlar aparacaqlar. Yeri gəlmişkən, Birləşmiş Ştatların 40 yaşlı vitse-prezidenti Cey Di Vens Zelenski ilə görüşüb. Vens görüşdən sonra jurnalistlərə deyib ki, Amerika Birləşmiş Ştatları Ukraynada bir-iki ildən sonra təkrar münaqişəyə gətirib çıxaran deyil, güclü və davamlı sülhə nail olmaq istəyir.

ABŞ-ın vitse-prezidenti avropalı müttəfiqlərlə birlikdə davamlı sülhə necə nail olmaq barədə bir sıra əlverişli dialoqlar aparıldığını söyləyib. Onun sözlərinə görə, yaxın günlər, həftələr, aylar ərzində belə dialoqlar daha çox olacaq.

ABŞ vitse-prezidenti gözlənilmədən Avropanı sərt tənqid edib. O, Avropa siyasətçilərinə üzünü tutaraq deyib ki, sizin üçün təhlükə nə Çindən, nə də Rusiyadan gəlir. Avropa özünü daxili nifaqdan qorumalıdır. Vens konfransdakı çıxışı zamanı şefi Trampı tərifləməyi də unutmayıb. Bildirib ki, 2022-ci ildə Tramp Ağ evdə olsaydı, Rusiya–Ukrayna müharibəsi başlamazdı.

Bu, əlbəttə, mübahisəli yanaşmadır. Tarix felin keçmiş zamanda işlədilən şərt şəklini qəbul etmir. Bugünün reallığı budur ki, Avropanın şərqində iki qonşu slavyan dövləti artıq 3 ildir ki, bir-birinə qarşı amansız müharibə aparır və hər iki tərəf ağır itkilər verir. Savaşı isə heç cür dayandırmaq mümkün olmur. Tramp öz seçkiqabağı kampaniyası zamanı müharibəni cəmi 1 sutka ərzində dayandıracağını vəd etmişdi. İndi isə ritorikasını dəyişib. Söhbət artıq həftələrdən, aylardan, illərdən gedir.

Yeri gəlmişkən, Münxen konfransı ərəfəsində ABŞ prezidenti rusiyalı həmkarı ilə telefonla danışıb. Telefon bağlantısının təfərrüatları geniş ictimaiyyətə hələlik tam açıqlanmır. Çox böyük ehtimalla Ağ ev Kremldən bu mənasız savaşı dayandırmağı, atəşkəsə razı olmağı xahiş edib. Rusiya tərəfi bundan imtina edib. Moskvanın dərhal atəşkəsə razılıq verməsi inandırıcı görünmür.

Kreml Ukraynada təkcə torpaq savaşı aparmır. Rusiya tərəfinin məqsədi Qərbi öz siyasi iradəsi ilə hesablaşmağa məcbur etməkdir. Ukrayna dünya güclərindən milli təhlükəsizliyi üçün etibarlı zəmanət istəyir. Bu zəmanəti indiki vəziyyətdə yalnız Amerika Birləşmiş Ştatları verə bilərdi. Vaşinqton isə bu savaşı Avropanın daxili problemi sayır və faktiki olaraq keçmiş müttəfiqini Rusiya hərbi maşını ilə üz-üzə qoyur.

Qeyd edək ki, İkinci Dünya müharibəsindən sonra Avropa ABŞ-ın təhlükəsizlik çətiri altında idi. ABŞ və SSRİ uzun onillər boyu bir-birilə “soyuq müharibə” aparanda, “Qoca qitə”nin bir çox dövlətləri Moskva ilə “dostluq” əlaqələri qururdular. İndi vəziyyət tamam başqadır. Tramp öz qazancını güdən iş adamının təfəkkürü ilə Amerikanın pullarını Avropa təhlükəsizliyi üçün xərcləmək niyyətində olmadığını gizlətmir. Bu, həyatın acı ironiyasıdır! Ukrayna bu sərt reallıqla razılaşmağa məhkumdur!

Bəli, Tramp administrasiyası Ukrayna problemini öz boynundan atmağa tələsir. Belə çıxır ki, onun Rusiya ilə qarşı-qarşıya oturub uzun-uzadı diplomatik müzakirələr aparmağa vaxtı da yoxdur. Vaşinqton nəyin bahasına olursa-olsun, Çinin yüksəlməkdə olan iqtisadi, hərbi gücünü, paralel olaraq artan ambisiyalarını cilovlamaq istəyir. Ağ ev düşünür ki, Pekinlə həlledici dueldə onun yanında Avropa yox, Yaponiya, Cənubi Koreya, bir də doğma AUKUS (ABŞ, Britaniya, Kanada, Avstraliya, Yeni Zelandiya ibarət ittifaq) olacaq. Trampın məntiqi, hardasa, başadüşüləndir.



Birləşmiş Ştatlar Rusiya–Ukrayna müharibəsindən artıq kifayət qədər yararlanıb. Ona görə ki, Almaniya, Rusiya və Çin on min kilometrlər boyu uzanan nəhəng Avrasiya məkanında, ən azı, yaxın gələcəkdə ticarət apara bilməyəklər. Amerika Rusiyanın belinə çox sayda sanksiyalar yükləməklə, artıq onu taqətdən salıb. Vaşinqtona hələlik öz ərazi bütövlüyünü qoruyan, amma iqtisadi baxımdan zəif Rusiya lazımdır.

Fikrimizcə, Rusiyanın Çinlə yaxın müttəfiq ola biləcəyi barədə ehtimallar da əsassızdır. Ona görə ki, Çin sivilizasiyası rus elitasına tamamilə yaddır. “Yeni rusiyalılar” özlərini Avropada görmək istəyirlər, “sarı əjdaha” qaydaları ruslar üçün heç vaxt cəlbedici olmayıb. Vaşinqton dünyanın ən böyük nüvə arsenalına malik olan Moskvanı Ukraynaya görə özündən tam narazı salmaq fikrində deyil. Rusiya ona Avropanın başı üzərində “Damokl qılıncı” kimi hər zaman lazım ola bilər.

Mövcud durumda Rusiya ilə Ukrayna arasında atəşkəsin imzalanması Avropanın Rusiya təcavüzü qarşısında kapitulyasiyası kimi qəbul edilə bilər. Hər halda bu tezis Kremlin daxili auditoriyaya ünvanlanan təbliğat üçün göydəndüşmə fürsət olacaq. Vaşinqtonun “etibarsızlığı” fonunda Rusiyanın Avropaya təhdidləri artacaq ki, bu da bu qitəyə yaxşı heç nə vəd etmir. Məğlubiyyət sindromu Avropada dezinteqrasiya prosesini sürətləndirəcək.

*EKSPERT RƏYİ*



**Atamoğlan Məmmədli,
BDU-nun professoru**

Münxendə keçirilən budəfəki təhlükəsizlik konfransı sayca 61-cidir. Bu tədbirin əsas fəlsəfəsi dialoq və diplomatiya yolu ilə hərbi qarşıdurmaların qarşısını almaqdır. Münxendə bir qayda olaraq milli təhlükəsizlik məsələlərinin müzakirəsi ön plandadır.

Budəfəki konfransda 800 rəsmi şəxs iştirak edir. Konfransın iştirakçıları arasında ABŞ-ın vitse-prezidenti Cey Di Vens də var. Onun lovğa ritorikası avropalı siyasətçiləri narazı salıb. Türkiyənin nümayəndə heyətinə isə qardaş ölkənin xarici işlər naziri Hakan Fidan rəhbərlik edir.

H.Fidan ABŞ-ın dövlət katibi Rubio ilə görüşərək onunla geniş müzakirələr aparıb. Diplomatlar ikitərəfli münasibətləri, eləcə də Suriyadakı vəziyyəti, Qəzzada baş verən ağrılı prosesləri və Rusiya ilə Ukrayna arasında müharibəni müzakirə ediblər. Fidan Ankaranın bütün bu problemlərin sülh yolu ilə həll olumasının tərəfdarı olduğunu vurğulayıb.

Avropa Təhlükəsizlik Konfransının yuxarıda qeyd etdiyimiz münaqişələrin həllinə real təsir göstərə bilirmi? Xeyr! Avropa başa düşür ki, öz hayına özü qalmalıdır. Buna görə də vahid Avropa ordusunu yaratmaq ideyası yenidən gündəmə gəlir. Almaniya isə artıq ölkədə fövqəladə təhlükəsizlik rejiminə keçməyi planlaşdırır.

Dünya siyasi yolayrıcındadır. Dünya gücləri siyasi ambisiyaları bir kənara qoyub qlobal problemlərin ədalətli həlli yollarını tapmalıdır. Bunu bəşəriyyətin mənafeyi tələb edir. Ümid edək ki, sağlam düşüncə gec-tez qələbə çalacaq.

Düşünmək olar ki, Münxen sammitində avropalı siyasətçilər bütün bu və digər çox sayda variantları gözdən keçirəcəklər. Özünü qitənin “ən böyük hərbi gücü kimi” qələmə verən Fransa isə tarix boyu ən xırda mənafeyi naminə tərəfdaşlarını su qiymətinə satıb. Almaniya bunu yaxşı bilir. Berlin mümkün qədər böyük münaqişəyə birbaşa cəlb olunmaqdan çəkinir. XX əsrdə Almaniya iki dəfə bunun bədəlini ödəyib. Anqlosakslar hər dəfə almanları tələyə salıb var-dövlətini yağmalayıblar.

Beləliklə, planetimizdə böyük güclərin əzələ nümayişi başlayıb. Münxen konfransı bir daha təsdiq etdi ki, okeanın o tayında səslənən böyük vədlərə baxmayaraq, Rusiya–Ukrayna müharibəsini dayandırmaq çətin olacaq. Super güclər hələ də böyük münaqişələrin nizamlanma mexanizmini tapa bilməyiblər.

***Məsaim ABDULLAYEV***
***XQ***

bp

**bp Xəzər dənizinin Azərbaycan sektorunda Şahdəniz perspektiv sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişin operatoru kimi elan edir ki, saziş üzrə iş proqramı çərçivəsində Şahdəniz Kompressiya (ŞDK) layihəsinin Ətraf Mühitə və Sosial-İqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin layihə variantını müzakirə etmək üçün ictimaiyyətlə görüş keçiriləcək.**

bp bütün tərəfləri bu görüşdə iştirak etməyə dəvət edir.
Görüş aşağıdakı tarixdə və ünvanda keçiriləcək:
18 fevral 2025-ci il
10:00 - 12:00
“Hilton Baku” oteli, “Lazurit” zalı,
(Azadlıq prospekti, 1B)

Görüşdə sənəd haqqında ətraflı təqdimatlar olacaq və auditoriyanın sualları və rəyləri ətrafında müzakirə keçiriləcək. Rəylər esiafeedback@bp.com elektron poçt ünvanına da göndərilə bilər.

ƏMSSTQ və Qeyri-texniki Xülasə sənədlərinin layihə variantlarının nüsxələri və rəy formaları ictimaiyyətin tanış olması üçün 27 yanvar 2025-ci il tarixindən aşağıdakı ünvanlarda yerləşdirilib:

- bp-nin “Xəzər Mərkəzi” ofisinin qəbul şöbəsi, Neftçilər prospekti 153
- Mirzə Fətəli Axundov adına Azərbaycan Milli Kitabxanası, Xaqani küçəsi 29
- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin elmi kitabxanası, Hüseyn Cavid prospekti 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası, Azadlıq prospekti 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bəhram Ağayev küçəsi 100a
- Bakı Ali Neft Məktəbinin kitabxanası, ali məktəbin kampusu, yeni Salyan şossesinin 3-cü kilometri.

Bundan əlavə, sənədlər bp-nin vebsaytından da yüklənə bilər:

**Azərbaycan dilində: https://www.bp.com/az_az/azerbaijan/home/news/hesabatlar/Etraf-muhit-ve-sosial-tesirlerin-qiymetlendirilmesi-hesabatlari/shah-deniz-/Sahdeniz-kompressiya-layihesi.html**

**İngilis dilində: https://www.bp.com/en_az/azerbaijan/home/news/reports/environmental-and-social-documentation/shah-deniz-/Shah-Deniz-Compression-Project.html**

Azərbaycan dilində: İngilis dilində:

# Şahbuzda tibbi aksiya



**Naxçıvan Muxtar Respublikası Tibb Müəssisələrinin İdarəetmə Birliyi (TMİB) və muxtar respublika Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin təşkilatçılığı ilə humanitar tibbi aksiya keçirilib.**

TMİB-nin mətbuat xidmətindən mətbuata bildirilib ki, agentliyin “Çətin həyat şəraitində olan şəxslər üçün Sosial Reabilitasiya Müəssisəsi”ndə təşkil olunan tibbi aksiyada Şahbuz Rayon Mərkəzi Xəstəxanasından və TMİB-in tabeliyindəki digər xəstəxanalardan dəvət olunmuş ixtisaslı həkim heyəti iştirak edib. Stomatoloq, oftalmoloq, nevropatoloq, lor, cərrah və digər ixtisaslı həkimlər tərəfindən 11 adda müayinələr aparılıb, qan analizləri götürülüb və nəticələrə uyğun müalicə təyin edilib.

TMİB-nin icraçı direktorunun müavini Əli Orucov və Sosial Xidmətlər Agentliyinin İdarə Heyəti sədrinin müavini Naib Əlizadə bu cür aksiyaların əhəmiyyətini vurğulayıblar. Sonda hədiyyələr təqdim olunub.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 35 (30729) 16 fevral 2025-ci il, bazar

İdman

## “Böyük dəbilqə”də qızıl medal

**Bakıda cüdo üzrə keçirilən nüfuzlu “Böyük dəbilqə” turnirinin 2-ci günündə Azərbaycan yığması 1-i qızıl olmaqla 3 medala sahib olub.**




Yığmamıza baş mükafatı 81 kiloqram çəki dərəcəsində Zelim Tçkayev qazandırıb. Təmsilçimiz finalda Fransua Qotye-Drapoya (Kanada) qalib gəlib. Komandamızın üzvlərindən Rəşid Məmmədəliyevin (73 kq) də qızıl medal şansı olmasına baxmayaraq, zədə səbəbindən Tatsuki İşihara (Yaponiya) ilə final görüşünə çıxa bilməyib və gümüş medalla kifayətlənib. Bu çəkidə Vüsal Qələndərzadə 3-cü yer uğrunda görüşdə Ryuqa Tanakanı (Yaponiya) məğlub edərək bürünc medala sahib olub. Qeyd edək ki, Azərbaycan cüdoçuları Əhməd Yusifov (60 kq) və Elşən Əsədov (66 kq) yarışın ilk günündə 2 bürünc medal qazanıblar.

## Stolüstü tennisçilərimiz Türkiyədə 3 mükafat qazanıblar

**Türkiyənin Nevşehir şəhərində təşkil olunan “WTT Youth Contender” turnirində Azərbaycan komandası 3 medal qazanıb.**



Yarışın son günündə U15 kateqoriyasının şəxsi turnirində mübarizə aparan Onur Quluzadə komandamızın aktivinə daha bir medal yazdırıb. Yarımfinalda Türkiyə təmsilçisi Kenan Kahramanla qarşılaşan Onur gərgin keçən görüşdə 2-3 hesabı ilə uduzaraq bürünc mükafatla kifayətlənib. Xatırladaq ki, Onur Quluzadə turnirin U17 kateqoriyasında da fəxri kürsünün 3-cü pilləsinə qalxmışdı. Qarışıq-qoşa yarışlarda isə Onur Quluzadə ilə Yağmur Məmmədli cütü U15 kateqoriyasında baş mükafata layiq görülmüşdü.

*Leyla QURBANOVA*
*XQ*

# Yeni çempionlar – Rauf Məmmədov və Günay Məmmədzadə

**Şahmat üzrə Azərbaycan çempionatı başa çatıb. Həm kişilərin, həm də qadınların yarışında finalda hər iki oyun heç-heçə bitdiyindən mübarizə tay-brekdə davam edib. Rəqiblərinə qalib gələn Rauf Məmmədov və Günay Məmmədzadə Azərbaycan çempionu olublar.**



Kişilərin mübarizəsində qeydə alınan nəticəni sensasiya saymaq olar. Belə ki, Məmmədov favorit hesab edilən Şəhriyar Məmmədyarova qalib gəlib – 2,5:1,5.

Yarışda reytinqinə görə Məmmədyarov və Teymur Rəcəbovdan sonra üçüncü olan Məmmədovun finala kimi yolu çətin keçib. O, Vüqar Rəsulovun timsalında 1/8 final səddini rahat adlasa da, sonra ağır mübarizə ilə üzləşib. Dörddəbir finalda reytinqinə görə yarışda 11-ci olan Əhməd Əhmədzadə ilə iki qarşılaşmanın ardından tay-brekdəki bütün partiyalar da heç-heçə yekunlaşıb. Yalnız armageddonda Məmmədov qara fiqurlarla heç-heçə etdiyi üçün yarımfinala çıxa bilib. Burada da Rəcəbovla oyunlar və tay-brekdəki görüşlər heç-heçə davam edərkən rəqibin kobud səhvi sayəsində qələbəyə sevinib.






Ən reytinqli şahmatçımız Məmmədyarov isə Məmmədovdan əvvəl bütün rəqiblərinə 2:0 hesabı ilə, yəni hər iki oyunda qalib gəlib. O, 1/8 finalda Fərid Abbasov, daha sonra Məhəmməd Muradlı, yarımfinalda da Misrətdin İskəndərovdan güclü olub.

Sanki çempion olmayacağını hiss edən Məmmədyarov hələ finaldan əvvəl olimpiya sistemində özünü tam göstərə bilmədiyini demişdi: “Oyun sayı az olduğundan Şəhriyar Məmmədyarov özü ola bilmir. Bu sistem ən önəmli anlarda psixoloji olaraq mənə mane olur”.

Bununla belə, Məmmədyarov yarışın əhəmiyyətini vurğulayır: “Səhv etmirəmsə, sonuncu dəfə 23 il əvvəl Azərbaycan çempionatında iştirak etmişəm. Dünyada aparıcı şahmatçıların çıxış etdiyi ölkə birincilikləri azdır. Builki Azərbaycan çempionatı tam fərqlidir. Sürprizlə dolu turnirdir”.

Elə sonluq da əsl sürpriz oldu. Halbuki, finaldan əvvəl Məmmədyarovun şansları daha yüksək qiymətləndirilirdi. Əməkdar məşqçi Fikrət Sideifzadə də mətbuata açıqlamasında məhz onun Azərbaycan çempionu olacağını düşünürdü: “O bu yarışda yaxşı mübarizə aparır. Çox ciddi rəqibləri 2:0 hesabı ilə məğlub edib. Düşünürəm ki, birinci yerə də layiqdir. Məmmədyarov finaldakı rəqibi Məmmədovdan bir pillə üstündür. Rauf da çox təcrübəli şahmatçıdır, ancaq Şəhriyar dünya şahmat elitasında daha üstün mövqedədir. Amma artıq bir səhv də həlledici ola bilər”.

Təcrübəli mütəxəssis Rəcəbovun yarımfinalda gələcək çempion Məmmədova uduzmasını isə belə şərh edib: “Teymur çoxdandır ki, oynamır, şahmata az diqqət yetirir. Ancaq o, düşünməli idi ki, peşəkar kimi yarışdan əvvəl oynamalıyam, formaya düşməliyəm. Buraxdığı səhv də oyunları yetərincə təhlil etməməsindən xəbər verir. Hətta mən ona səhv də deməzəm, bu faciədir. Göz görəgörə vəzirə “hücum etmək” Teymurun atacağı addım deyil. Bu ona çox güclü psixoloji zərbə oldu. Adi adamlar bəlkə də bunu hiss etmir, ancaq bizim başımıza gəldiyi üçün nə demək olduğunu yaxşı bilirik. Belə səhvlər edəndə insan özünü lap dənizə atmaq istəyir. Məncə, o, üçüncü yer uğrunda görüşdən psixoloji amilə görə imtina etdi. Nə desin? Desin ki, Misrətdin İskəndərovla oynamıram? Hətta bu səhv onun beynində uzun müddət iz buraxacaq və asanlıqla keçməyəcək” (İdman.biz).

Bəli, 3-cü yer uğrunda qarşılaşma keçirilməyib. Rəcəbov səhhətində problem yarandığını bildirərək çıxışını dayandırıb və nəticədə hər iki oyunda Misrətdin İskəndərova qələbə verilib (2:0).

Bununla bağlı mətbuata danışan İskəndərov klassik şahmatda Rəcəbova uduzmayacağını düşündüyünü deyib: “Daha əvvəl onunla qarşılaşmamışam. Yarımfinalda Şəhriyar Məmmədyarova uduzsam da, onunla görüşdən sonra özümə inamım artdı. Yaxşı oynamışdım. Növbəti dueldə də özümə inanırdım. Fikrimcə, oyun tay-brekə qədər davam edəcəkdi.

Ümumilikdə, yarış mənim üçün uğurlu alındı. Reytinqdə məndən yuxarıda olanlara qalib gələ bildim. Yekunda üçüncü yeri tutdum”.

***

Qadınların yarışında isə sensasiya olmayıb. Azərbaycan şahmatçıları arasında ən yüksək reytinqə malik Günay Məmmədzadə bütün oyunlarda rəqiblərini, tay-brekdə olsa belə, məğlub edə bilib – özü də hamısında 2,5:1,5 hesabı qeydə alınıb. O, əvvəlcə Lalə Hüseynova, sonra da Səbinə İbrahimovanı mübarizədən kənarlaşdırıb, yarımfinalda gələcək bürünc mükafatçı Gülnar Məmmədova, finalda isə Gövhər Beydullayevadan güclü olub.

Maraqlıdır ki, Məmmədzadə həm yarımfinalda, həm də finalda ilk oyundan sonra hesabda geri düşsə də, əzmkarlıq göstərərək rəqiblərinə qalib gələ bilib.

Finalçıya gəlincə, əvvəlcə Səbinə Rzalını çətinlik çəkmədən məğlub edən (2:0) Beydullayeva dörddəbirdə Türkan Məmmədyarova ilə ilk görüşdə uduzsa da, sonra geridönüş edərək tay-brekdə qalib gəlib (3:2), nəhayət, yarımfinalda da Ülviyyə Fətəliyevadan güclü olub (2,5:1,5).

Sideifzadə final ərəfəsində qadınların yarışı ilə bağlı da fikirlərini bölüşüb: “Günay Məmmədzadənin bu turnirdəki oyunu xoşuma gəlmir. Dörddəbir finalda da çətinliklə qalib gəlib. Hər bir şahmatçının maksimumu var. Qadın şahmatçılarımız son dönəmlərdə yaxşı çıxış edirlər. Daha da irəli addımlamaq üçün çalışmalıdırlar, öz səhvləri üzərində işləməlidirlər. Təəssüf ki, qadınlardan ibarət millidə aşağıdan gələn gənc şahmatçı görmürəm. Bu da böyük minusdur. İlk beş qrossmeysterdən sonra Nərmin Abdinova və Ayan Allahverdiyeva hələlik komandaya yaxınlaşa bilmirlər”.

3-cü yer uğrunda mübarizənin ilk oyununda uduzmasına baxmayaraq, sonrakı görüş və tay-brekdə əzmkarlıq göstərən Gülnar Məmmədovanın reytinqə görə özündən üstün olan Ülviyyə Fətəliyevaya ümumi 3:1 hesabı ilə qalib gəldiyini də bildirək.

***Rasim MÖVSÜMZADƏ***

# Martda 12 gün iş olmayacaq

**Bu il Novruz və Ramazan bayramları ilə əlaqədar mart ayında ölkədə ardıcıl 12 qeyri-iş günü olacaq. Nazirlər Kabinetinin 11 dekabr 2024-cü il tarixli qərarına əsasən, 2025-ci il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramıdır. 22 və 23 mart tarixləri şənbə və bazar gününə təsadüf etdiyindən Əmək Məcəlləsinə əsasən, 25 və 26 mart qeyri-iş günü olacaq.**




Nazirlər Kabinetinin dünən verdiyi qərara əsasən, iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2025-ci il 27 və 28 mart iş günləri ilə müvafiq olaraq 10 mart və 1 aprel istirahət günlərinin yerləri dəyişdirilib.

Qeyd edək ki, 8 Mart – Beynəlxalq Qadınlar Günü şənbə gününə təsadüf etdiyindən Əmək Məcəlləsinə əsasən, 10 mart qeyri-iş günü olmalı idi.

Bundan başqa, 30 mart Ramazan bayramı bazar gününə düşdüyündən 1 aprel qeyri-iş günü sayılmalıydı.

Beləliklə, 29 və 30 mart tarixləri də şənbə və bazar günlərinə təsadüf etdiyindən, bu il Novruz və Ramazan bayramlarında 20, 21, 22, 23, 24, 25, 26, 27, 28, 29, 30 və 31 mart tarixləri qeyri-iş günü olacaq.

*XQ*

HAVA

# Bu gün yaz havası olacaq

**Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi arabir güclənəcək.**



Havanın temperaturu gecə 1-6° isti, gündüz 9-14° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 55-60 faiz olacaq.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 11-16° isti, dağlarda gecə 5-10°şaxta, yüksək dağlıq ərazilərdə 13-18° şaxta, gündüz 0-5° şaxta olacaq.

Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.

*Q.QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3203
SİFARİŞ 325
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00